QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 149 (5621) 9 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Kənd təsərrüfatı sahəsində ən müasir standartlar tətbiq edilməkdədir




Səh 4

11

Paşinyanın arvadı riyakarlıq edir



13

Petrosyan-Koçaryan-Sarkisyan üçlüyü Ermənistanı talan edib: Ölkədən 30 milyard dollar çıxarılıb



16

"Çelsi"dən futbol tarixinin ən bahalı qapıçı transferi



# “Azərbaycan ilə Bəhreyn arasında ikitərəfli münasibətlər uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Bəhreyn Krallığının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Bəhreyn Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ebrahim Yusuf Al-Abdullanın etimadnaməsini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, səfir Ebrahim Yusuf Al-Abdulla fəxri qarovul dəstəsinin qarşısından keçdi. Ebrahim Yusuf Al-Abdulla etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Bəhreyn arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Prezident İlham Əliyev Ebrahim Yusuf Al-Abdullanın səfirlik fəaliyyəti dövründə Azərbaycanın müxtəlif qurumlarının rəhbərləri ilə görüşəcəyinə və bu görüşlərin yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Ebrahim Yusuf Al-Abdulla Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdıraraq qeyd etdi ki, Bəhreyn Krallığında Azərbaycan xalqının Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə son illər əldə etdiyi uğurlar böyük maraqla izlənilir.

Səfir Ebrahim Yusuf Al-Abdulla ölkələrimiz arasında iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsinin zəruri olduğunu bildirdi, eyni zamanda, mədəni əlaqələrin inkişafının da önəmli olduğunu qeyd etdi.

Azərbaycan ilə Bəhreyn arasında bir çox oxşar məqamların olduğunu bildirən səfir vurğuladı ki, hər iki ölkə öz müstəqilliyinin, ərazi bütövlüyünün möhkəmləndirilməsi, eyni zamanda, sivilizasiyalararası dialoqun təşviqi, sülh və əmin-amanlıq şəraitində yaşaması üçün bütün dünyada səylər göstərir.

Ebrahim Yusuf Al-Abdulla qeyd etdi ki, Azərbaycan Prezidenti və Bəhreyn Kralının əlaqələrimizin inkişafı ilə bağlı göstərdiyi siyasi iradə ikitərəfli münasibətlərimizin inkişafı üçün yaxşı zəmin yaradır və beynəlxalq ictimaiyyətin bizim ölkələrimizə böyük etimadı var.

Səfir onu da bildirdi ki, Azərbaycan postsovet məkanında, Bəhreyn isə Yaxın Şərqdə aparıcı maliyyə mərkəzlərindən biridir və bu, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaradır.

Dövlətimizin başçısı siyasi əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu qeyd edərək ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini müxtəlif məsələlər, o cümlədən ölkələrimizin suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü məsələlərində dəstəklədiyini, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər qurumlarda həmrəylik göstərdiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın İslam həmrəyliyi işinə böyük töhfə verdiyini və bunun İslam Əməkdaşlıq Təşkilatı tərəfindən yüksək qiymətləndirildiyini vurğulayaraq, keçən il ölkəmizdə “İslam Həmrəyliyi İli”nin elan olunduğunu və böyük müvəffəqiyyətlə IV İslam Həmrəyliyi Oyunlarının keçirildiyini vurğuladı və qeyd etdi ki, Azərbaycan müsəlman ölkələri arasında birliyin və qarşılıqlı dəstəyin möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcək. İqtisadi-ticari əlaqələrin, qarşılıqlı ixracatın genişlənməsinin vacibliyinə toxunan dövlətimizin başçısı turizm sahəsində də böyük potensialın olduğunu və Bəhreyndən Azərbaycana gələn turistlərin sayının durmadan artdığını qeyd etdi.

Dövlətimizin başçısı Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifənin salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Bəhreynin Kralına çatdırmağı xahiş etdi.

## *Bakıda avtobus parkının yenilənməsi üçün 47,9 milyon manat ayrılıb*

Bakıda avtobus parkının yenilənməsi üçün 47 milyon 924 min manat ayrılıb. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev avqustun 8-də “Bakı şəhərində avtobus parkının yenilənməsi haqqında” Sərəncam imzalayıb.

Sərəncama əsasən, Bakı Nəqliyyat Agentliyinə (BNA) 300 ədəd sərnişin avtobusunun alınması məqsədilə 47 milyon 924 min manat ayrılıb.

# Thenational.ae: Qurban bayramı günlərində Azərbaycana gəlmək BƏƏ əhalisi üçün ən yaxşı variantdır

***Qurban bayramı günlərində Azərbaycana gəlmək Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) əhalisi üçün ən yaxşı variantdır. Qonaqlar paytaxtın görməli yerlərindən zövq ala, milli mətbəxin ləziz təamlarından dada, Azərbaycan xalqının zəngin mədəniyyəti və tarixi ilə tanış ola bilərlər. AZƏRTAC bu barədə thenational.ae saytına istinadla xəbər verir.***

Ötən ay qəbul edilmiş qərar onu göstərir ki, Azərbaycana gələn BƏƏ sakinləri indi vizanı ölkəyə çatdıqda əldə edə bilərlər (əvvəllər viza Azərbaycan səfirliyində alınmalı idi). Dubay və Əbu-Dabidən uçuşlar (“FlyDubai” və “Etihad” vasitəsilə) cəmi iki saat yarım təşkil edir.

Saytda Azərbaycan səfirliyinin bu məsələ ilə bağlı izahı da dərc olunub. Qeyd edilir ki, BƏƏ-nin bütün sakinləri Azərbaycana gəldikləri andan bir aylıq viza əldə edəcəklər, lakin BƏƏ-də yaşama üçün viza və pasport Azərbaycana gələn tarixdən ən azı 120 gün etibarlı olmalıdır; Azərbaycanda 15 gündən artıq qalan bütün əcnəbilər ölkənin Dövlət Miqrasiya Xidmətində qeydiyyatdan keçməlidirlər. Bəyanatda vurğulanır ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunan ərazilərinə qanunsuz səfər etmiş istənilən şəxsə ölkəmizə gəlmək üçün viza verilməyəcək.


The National
LIFESTYLE
UAE residents can now visit this beautiful country and get a visa on arrival - in pictures
Azerbaijan is now a last-minute option for UAE residents - and just in time for the next Eid break. Here's an in-pictures guide to what you'll find there
The National
August 7, 2018
A ruling from last month means that UAE residents visiting Azerbaijan can now easily get a visa on arrival (previously, visas had to be obtained from the Azerbaijani embassy).
The diverse nation of more than 9 million people has been considered both part of Europe and Asia throughout its history - and it's only a two-and-a-half hour flight from Dubai or Abu Dhabi (both FlyDubai and Etihad travel there directly).

# "Azərbaycan ilə Şri-Lanka arasında çox yaxşı siyasi əlaqələr mövcuddur"

*Prezident İlham Əliyev Şri-Lankanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Şri-Lanka Demokratik Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Şərif Anisin etimadnaməsini qəbul edib.***



AZƏRTAC xəbər verir ki, səfir Məhəmməd Şərif Anis fəxri qarovul dəstəsinin qarşısından keçdi. Məhəmməd Şərif Anis etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Şri-Lanka arasında çox yaxşı siyasi əlaqələrin mövcud olduğunu bildirərək beynəlxalq təşkilatlarda ölkələrimizin bir-birini dəstəkləməsindən məmnunluğunu ifadə etdi.

İqtisadi sahədə əlaqələrin inkişafının önəmini qeyd edən dövlətimizin başçısı bunun üçün yaxşı potensialın olduğunu bildirdi. Prezident İlham Əliyev Məhəmməd Şərif Anisin səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində vəzifələrin müəyyənləşdirilməsi üçün Azərbaycanın müvafiq qurumları ilə səmərəli görüşlər keçirəcəyinə və qarşılıqlı səfərlərin təşkil olunacağına əminliyini bildirdi.

Məhəmməd Şərif Anis Şri-Lanka Prezidenti Maytripala Sirisenanın və Şri-Lankanın Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. Səfir ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsinin önəminə toxunaraq ticarət və sənaye sahələrində əlaqələrin genişlənməsi üçün səylərini əsirgəməyəcəyini dedi. Azərbaycanın regionda ən gözəl turizm məkanlarından biri olduğunu qeyd edən səfir bu sahədə Şri-Lanka ilə Azərbaycan arasında əməkdaşlığın qurulması üçün geniş imkanların olduğunu bildirdi. Səfir, eyni zamanda, qarşılıqlı investisiya sahəsində imkanların araşdırılmasının zəruriliyini qeyd etdi.

Prezident İlham Əliyev Məhəmməd Şərif Anisin ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı İlham Əliyev Şri-Lanka Demokratik Sosialist Respublikasının Prezidenti Maytripala Sirisenanın və Şri-Lanka Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Şri-Lanka Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

# "Koreya Xalq Demokratik Respublikası ilə Azərbaycan arasında dostluq əlaqələri tarixi ənənələrə söykənir"

*Prezident İlham Əliyev KXDR-in Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 8-də Koreya Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Hen Cunun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Kim Hen Cun fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Kim Hen Cun etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı gələcək illərdə ölkələrimiz arasında müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin gücləndirilməsinin və əməkdaşlığın möhkəmləndirilməsinin zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev, eyni zamanda, beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT və Qoşulmama Hərəkatında fəal əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirərək, bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirləri səviyyəsində konfransının keçirildiyini və tədbir çərçivəsində Koreya Xalq Demokratik Respublikasının xarici işlər naziri ilə görüşünü məmnunluqla xatırladı. Azərbaycanın gələn il bu təşkilatın sammitinə ev sahibliyi edəcəyini deyən dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin müxtəlif formatlarda bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.

Səfir Kim Hen Cun, ilk növbədə, Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının Sədri Kim Çen Inın və Koreya Xalq Demokratik Respublikasının Ali Xalq Yığıncağı Rəyasət Heyətinin Sədrinin salamlarını dövlətimizin başçısına çatdırdı. Səfir Koreya Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq əlaqələrinin tarixi ənənələrə söykəndiyini qeyd edərək, ikitərəfli münasibətlərimizin əsasının rəhbər Kim İr Sen və xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu vurğuladı. Səfir vurğuladı ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra onun suverenliyini ilk tanıyan ölkələrdən biri Koreya Xalq Demokratik Respublikası olub və bu illərdə əlaqələrimiz inkişaf edib.

Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının Sədri Kim Çen Inın və Koreya Xalq Demokratik Respublikasının Ali Xalq Yığıncağı Rəyasət Heyətinin Sədrinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının Sədri Kim Çen Ina və Koreya Xalq Demokratik Respublikasının Ali Xalq Yığıncağı Rəyasət Heyətinin Sədrinə çatdırmağı xahiş etdi.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

9 avqust 2018-ci il

# Kənd təsərrüfatı sahəsində ən müasir standartlar tətbiq edilməkdədir

## *Prezident İlham Əliyev: "Dünyanın aparıcı şirkətlərinin texnikası bu gün bizim tarlalarımızda fəaliyyət göstərir və fermerlər də bu texnikadan çox razıdırlar"*

***Sirr deyil ki, aqrar sektorun intensiv inkişafı müasir texnika və texnologiyaların tətbiqindən keçir. Çünki yeni texnika və texnologiyalar kənd təsərrüfatı məhsulları istehsalında heç də az tələb olunmayan əl əməyini yüngülləşdirir. Eyni zamanda, onların tətbiqi məhsuldarlığı xeyli artırır ki, bu da çox mühüm amildir.***



Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında kənd təsərrüfatının modern texnika ilə təchizatının əhəmiyyətini xüsusi vurğulayıb: "Kənd təsərrüfatı ilə bağlı qarşıda duran əsas vəzifələr bu sahədə ən müasir standartları tətbiq etməkdir. Son illər kənd təsərrüfatının inkişafına böyük diqqət göstərilmişdir. Demək olar ki, biz texniki parkımızı tamamilə yeniləşdirmişik. Kənd təsərrüfatı texnikasının alınması bundan sonra da davam etdiriləcək. Özü də qeyd etməliyəm ki, dünyanın aparıcı şirkətlərinin texnikası bu gün bizim tarlalarımızda fəaliyyət göstərir və fermerlər də bu texnikadan çox razıdırlar. Bu məqsədlə böyük vəsait nəzərdə tutulur. Burada qeyd olundu ki, təkcə bu il 160 milyon manat dəyərində 5 mindən çox texnika alınacaq, keçən il isə 10 min texnika alınmışdır".



Bu gün həm aqrotexniki, həm də su ilə təminat texnologiyalarının Azərbaycana gətirilməsi vacib məsələ kimi qarşıda durur. Dünyada elə müasir suvarma sistemləri var ki, hər bir qarış torpaqdan maksimum səmərə ilə istifadə etməyə imkan verir. Ölkəmizin isə su ehtiyatları məhduddur. Ümumiyyətlə, istər içməli, istərsə də suvarma su ehtiyatları dünyada getdikcə tükənir. Təsadüfi deyil ki, bu yay Avropadan Yaponiyaya qədər bütün ölkələrdə sudan qənaətlə istifadə edilməsinə dövlət nəzarəti gücləndirilmiş, israfçılığa qarşı tətbiq edilən cəzalar sərtləşdirilmişdir. Bol su ehtiyatları olan Kanadada da sudan qənaətlə istifadəyə ciddi dövlət nəzarəti var və bu sahədə qanunu pozanlara qarşı sərt cəza tədbirləri görülür. Ölkəmiz də sudan qənaətlə istifadə etmək üçün cəza tədbirlərini sərtləşdirməklə yanaşı, sudan səmərəli istifadə edən texnologiyalara üstünlük verməyə məcburdur. Səbəb, qeyd etdiyimiz kimi, su ehtiyatlarımızın məhdud olmasıdır.

Prezident İlham Əliyev sözügedən iclasda bu məsələ ilə bağlı bildirmişdir ki, hər bir qarış torpaqdan səmərəli istifadə etməliyik. Kənd təsərrüfatı müəyyən dövrdən sonra ancaq intensiv yolla inkişaf edə bilər. Ancaq bu gün böyük miqdarda meliorasiya tədbirləri görülür ki, suvarılmayan torpaqlara su gətirilsin. Odur ki, növbəti hədəf intensiv üsullardan istifadə edərək, hər qarış torpaqdan yüksək məhsuldarlıq götürməkdir. Bu, kənd təsərrüfatının qarşısında duran əsas vəzifədir.

Aqrar sektorun inkişafının bir yolu da aqroparkların yaradılmasıdır. Çünki müasir texnika və texnologiyalar, məhz aqroparklarda geniş tətbiq edilir. Onun logistik, satış və emal imkanları geniş olur. Üstəlik, müasir texnika və texnologiyalardan istifadə yüksək məhsuldarlığa təminat verir, əmək resurslarından səmərəli istifadə etmək imkanı yaranır. Elə buna görə də Azərbaycanda aqroparkların yaradılmasına dövlət tərəfindən hərtərəfli dəstək verilir. İndiyədək təkcə aqroparkların yaradılması üçün infrastruktur layihələrinə 200 milyon manatdan çox investisiya qoyulub və sahibkarlara 100 milyon manatdan çox güzəştli şərtlərlə kredit verilib.

Ölkə üzrə innovativ inkişafı təmin etmək üçün 30 rayonda 192 min hektar ərazidə 45 aqroparkın yaradılması nəzərdə tutulur. Bu aqroparklara təqribən 1-1,5 milyard manat sərmayə yatırılacaq.

Hələlik, ölkəmizdə 4 aqropark məhsul istehsalı ilə məşğul olur. İlin sonunadək daha 14 aqroparkın fəaliyyətə başlaması nəzərdə tutulub. Qeyd edək ki, bitkiçiliklə məşğul olan 4 aqroparkda məhsuldarlıq yüksəkdir. Məsələn, taxılçılıqda məhsuldarlıq ölkə üzrə 30 sentner/ hektar olduğu halda, aqroparklarda bu rəqəm 50 sentnerdir.

Aqrar sektorda islahatların aparılması müsbət nəticələr verir. Cari ilin 6 ayı ərzində kənd təsərrüfatında 7,6 faiz artım qeyd edilib. Bitkiçilikdə artım daha yüksəkdir - 14 faiz. Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, bu ilin yanvar-iyun ayları ərzində kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 3 milyard 206 milyon manat təşkil edir ki, onun da 1 milyard 774 milyon manatı heyvandarlıq, 1 milyard 431 milyon manatı bitkiçilik məhsullarının payına düşür.

Bütün bunlarla yanaşı, kənd təsərrüfatının inkişafı ərzaq təhlükəsizliyinin təminatı deməkdir. Yeni əhalinin istifadə etdiyi qidanın çox hissəsi bu sektorun payına düşür. Deməli, əhalinin sağlamlığında da aqrar sektor önəmli rol oynayır. Çünki həmin sahədə insan həyatı üçün təhlükəli maddələrdən normadan çox istifadə edilməsi əhalinin sağlamlığına mənfi təsir göstərməklə nəticələnir. Bunun qarşısını almaq üçün Qida Təhlükəsizliyi Agentliyi yaradılıb. Məqsəd Azərbaycana gətirilən ərzaq məhsullarının beynəlxalq standartlara tam uyğun olmasına nəzarət etmək, həmçinin, ölkəmizdə istehsal edilən məhsulların bu standartlara uyğunluğunu nəzarətdə saxlamaqdır. Dövlət bu agentliyin nəzarət imkanlarını genişləndirmək məqsədilə regionlarda geniş laboratoriyalar sistemi yaradır. Həmin laboratoriyalar həm ərzağın keyfiyyətinə nəzarət etmək, həm də fermerlərə əkdikləri torpaqların tərkibi haqqında ətraflı məlumat vermək imkanına malikdir.

Bir sözlə, Azərbaycanın qeyri-neft sektorunda kənd təsərrüfatı ərzaq təhlükəsizliyini təmin edən sahə kimi xüsusi əhəmiyyət kəsb edir. Bu sahə coğrafiyasına və əhalinin məşğulluğuna görə də əvəzsizdir. Digər tərəfdən, regionların sosial-iqtisadi inkişafında kənd təsərrüfatı önəmli rol oynayır. Məhz bu üç səbəbə görə, son dövrlər ölkəmizdə kənd təsərrüfatının inkişafına dövlət dəstəyi daha da artıb. Elə Kənd Təsərrüfatı Nazirliyində Fermerlər Şurasının yaradılması da bu dəstəyin bir göstəricisidir.

Qeyd edək ki, Prezident İlham Əliyev aqrar sahənin məmurları qarşısında fermerlərə daha yaxın olmaq, onların problemlərini dinləmək və problemlərin həll yollarını birgə axtarmaq kimi vəzifələr qoyub. Bu baxımdan, Prezident İlham Əliyevin qərarları ilə yerlərdə kənd təsərrüfatı idarələrinin əsasında Dövlət Aqrar İnkişaf Mərkəzləri (DAİM) yaradılacaq. Yeni qurum "vahid pəncərə" sisteminin tətbiqinə və şəffaflığın tam təmin olunmasına imkan verəcək. DAİM-lər yanında Fermer və Koordinasiya Şuraları yaradılacaq.

Ümumiyyətlə, Kənd Təsərrüfatı Nazirliyinin son məqsədi odur ki, fermerlər torpaqdan daha səmərəli istifadə edə bilsinlər, daha çox məhsul istehsal edib, daha çox qazansınlar. Fermerlərin problemlərini müəyyən etmək, onların öz fəaliyyətlərini daha mükəmməl qurmalarına kömək göstərmək məqsədilə Aqrar Tədqiqatlar Mərkəzi yaradılıb. Eyni zamanda, fermerlərin öz məhsullarını satmalarına yardım göstərmək üçün Dövlət Aqrar Ticarət Şirkəti yaradılıb. Məlumdur ki, fermerdən məhsulu alan vasitəçilər çox zaman onu becərən insandan daha çox pul qazanırlar. Məhz Dövlət Aqrar Ticarət Şirkəti bu problemi aradan qaldırmaq üçün yaradılıb. "Aqrolizinq" isə fəaliyyətini təkmilləşdirməli, ölkəyə yeni texnikalar gətirilməli, qiymətlər isə əlçatan olmalıdır. Həmçinin, Azərbaycanda 11 regional aqrokimya laboratoriyası yaradılıb. Bu laboratoriyalar fermerlərə torpağın tərkibini analiz etməyə imkan verəcək, əkin sahələrində meydana çıxan bir çox problemlərin qarşısını əvvəlcədən almağa şərait yaradacaq.

***"Səs" Analitik Qrupu***

# Hikmət Hacıyev: "Başqa ölkənin torpağını işğal etmək, mülki insanları etnik təmizləməyə məruz qoymaq əsl terrordur"

*Avqustun 6-da "Euroasianet.org" portalında jurnalist Coşua Küçeranın müəllifi olduğu "Ermənilər üçün buralar işğal olunan ərazilər deyil, vətəndir" adlı məqalə dərc edilib. Sözügedən məqalə ilə əlaqədar Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev "Euroasianet.org" portalının redaktoruna mətbuat azadlığı və qarşı tərəfin də mövqeyinə hörmət prinsiplərini əsas tutaraq, cavab yazısı göndərsə də, redaksiya tərəfindən bunu dərc etməkdən imtina olunub.*



AZƏRTAC Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbərinin sözügedən məqaləsini və Kəlbəcərin işğalı ilə əlaqədar cavab yazısını təqdim edir:

- Mən sizə 6 avqust tarixində "Euroasianet.org"un jurnalisti Coşua Küçeranın müəllifi olduğu "Ermənilər üçün o işğal edilmiş deyil, vətəndir" adlı məqaləsi ilə əlaqədar yazıram. Məqalə Azərbaycanın Kəlbəcər rayonunun işğalından bəhs etsə də, orada yalnız bir tərəfin fikirləri əks olunub və Kəlbəcərin işğalının real mənzərəsini təqdim etmir.

Başqasının əmlakını zor yolu ilə oğurlamaq və sonradan onu özününkü adlandırmaq soyğunçuluqdur. Bunun başqa adı yoxdur. Bu kimi soyğunçuluq əməlinə bəraət qazandırmaq isə utancverici və ifrat qeyri-mənəvi addımdır.

Azərbaycanın Kəlbəcər rayonu Ermənistanın Azərbaycana qarşı başladığı müharibənin tərkib hissəsi olaraq 1993-cü ilin aprelində işğal edilib. Bu il Kəlbəcərin faciəvi işğalının 25 illiyidir. Kəlbəcər Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarından kənarda yerləşir. Kəlbəcərin işğalı məqsədilə hücum əməliyyatı ağır silahlar, Mi-24 helikopterləri və döyüş təyyarələri istifadə edilməklə əsasən Ermənistan ərazisindən həyata keçirilib. İşğal nəticəsində Kəlbəcərin 60 min nəfərdən artıq sakini etnik təmizləməyə məruz qalıb. Kəlbəcərin işğalı nəticə etibarilə Ermənistanın işğalçı tərəf kimi müharibədə öz rolunu inkar etməsinə əsaslı şəkildə son qoydu.

Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi bu kimi qeyri-qanuni əməllər beynəlxalq hüququn imperativ normalarından irəli gələn öhdəliklərin kobud şəkildə pozulmasıdır.

BMT-nin Təhlükəsizlik Şurası Azərbaycanın Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822 saylı qətnamə qəbul edib. Qətnamədə BMT TŞ Azərbaycanın beynəlxalq sərhədlərinin toxunulmazlığını təsdiq edib və ərazi əldə edilməsi üçün gücdən istifadənin qəbuledilməzliyini vurğulayaraq, işğalçı qüvvələrin dərhal işğal olunmuş Kəlbəcər və digər rayonlardan çıxarılmasını tələb etdi. BMT TŞ-nin qətnaməsinin tələblərinə uyğun olaraq Ermənistan nəinki öz qoşunlarını işğal olunmuş Azərbaycan ərazilərindən çıxardı, əksinə, Ağdam, Cəbrayıl, Qubadlı, Füzuli və Zəngilanı işğal etdi. Bunlar açıq şəkildə göstərir ki, Ermənistanın əsl xisləti güc vasitəsilə ərazilərin işğalı olub və bu şəkildə qalmaqda davam edir.

Ermənistan beynəlxalq humanitar hüquq, xüsusilə Cenevrə Konvensiyalarını və Əlavə Protokolları kobud şəkildə pozaraq, işğal edilmiş Kəlbəcər və digər ərazilərin demoqrafik və etnik-mədəni xüsusiyyətlərini dəyişdirmək üçün erməni əsilli şəxsləri bu torpaqlarda yerləşdirməyə çalışır. Ermənistanın, həmçinin şübhəli ofşor şirkətləri cəlb edərək aqressiv formada Kəlbəcərin mineral və qızıl resurslarını talan edir. Bu qəbildən olan qeyri-qanuni əməllər Cenevrə Konvensiyaları və Əlavə Protokollara görə hərbi cinayətlər hesab olunur.

Arxeologiya və etnoqrafiya elminin ən adi qaydalarına zidd olaraq, əldəqayırma erməni tarixçilər tarixi, o cümlədən Kəlbəcərdə yerləşən Qafqaz Albaniyasının xristian irsini saxtalaşdıraraq Kəlbəcəri erməni torpağı kimi təqdim etməyə çalışırlar. İstehza doğuran hal odur ki, bəzi fərdi hallar istisna olmaqla, ermənilər heç vaxt icma kimi Kəlbəcərdə yaşamayıblar. Ermənistan və erməni diaspora dairələrinin bütün cidd-cəhdlərinə baxmayaraq, Kəlbəcər şəhərində yalnız bir neçə yüz adam yaşayır və ya yaşamağa səy göstərir. Səbəb çox sadədir. Çünki Kəlbəcər işğal olunmuş ərazidir, onların torpağı deyildir.

Məqalədə iqtibas olunan və 2000-ci ildə Kəlbəcərə gələn Aleksandr Kananyandan fərqli olaraq soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyev Kəlbəcərdə anadan olub və 2014-cü ildə ata-analarının qəbirlərini ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüblər. Hazırda 70 mindən çox Kəlbəcər sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi yaşayırlar. 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələri tərəfindən öldürülmüş 16 yaşlı Turanə Həsənlinin ailəsi kimi minlərlə kəlbəcərli doğma Kəlbəcərə qayıtmağı və öz əmlaklarına sahib durmaq anını gözləyir.

Məqalədə iqtibas olunan və qondarma rejimin nümayəndəsi kimi özünü təqdim edən Yelena Mxtaryanın isə bütün müsəlmanları təhqir edən və müsəlman qadınlarını terrorçu kimi təqdim edən açıqlaması qəbuledilməzdir və rasist bir yanaşmadır. Ermənistan-Azərbaycan münaqişəsində dini elementlər yoxdur. Azərbaycan zəngin multikulturalizm ənənələrinə malik dünyəvi ölkədir. Bu, sırf ərazi münaqişəsidir. Ermənistan güc yolu ilə Azərbaycan ərazilərini işğal edib. Bütün siyasi, hüquqi və mənəvi arqumentlərdən məhrum olan Ermənistan tərəfi indi din amilini ortaya ataraq bu yolla öz işğalçı siyasətinə bəzi qərb dairələri tərəfindən bəraət qazandırmaq istəyir. Yelena Mxtaryana xatırlatmaq istərdim ki, Kəlbəcərdə olduğu kimi, başqa ölkənin torpağını işğal etmək, mülki insanları etnik təmizləməyə məruz qoymaq və əmlakını talamaq əsl terrordur.

Azərbaycan heç zaman öz ərazilərinin işğalı ilə barışmayacaq. Ermənistanın sabiq prezidenti Serj Sarkisyan rejimi bu reallığı anlamadı. Ermənistanın yeni hakimiyyəti nəhayət başa düşməlidir ki, münaqişənin davamlı və uzunmüddətli siyasi həllinə nail olunmasının yeganə yolu Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və tamamilə çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtmaları üçün ayrılmaz hüquqlarının təmin edilməsidir. Bunu etməklə Ermənistanın yeni hakimiyyəti yalnız sözdə deyil, əməldə sülhə və Ermənistanın beynəlxalq öhdəliklərinə sadiq olduğunu sübut etmək imkanı qazana bilər. Əks təqdirdə, bütün məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür.

Hər bir dövlət kimi, Azərbaycan Respublikası da beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünü, suverenliyini və vətəndaşlarının pozulmuş hüquqlarını bərpa etmək üçün BMT nizamnaməsində təsbit olunmuş ayrılmaz özünü müdafiə hüququndan istifadə etmək haqqını özündə saxlayır.

# Hikmət Babaoğlu: "Ordumuz dənizdə də güclü ordular sırasındadır"

*"Avqustun 6-da "Beynəlxalq Ordu Oyunları-2018" yarışları çərçivəsində "Artilleriya atəşinin ustaları-2018" müsabiqəsinin yarımfinal mərhələsində Azərbaycan hərbçilərinin növbəti dəfə uğur qazanaraq müsabiqənin finalına yüksəlməsi mühüm göstəricidir". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.*



Deputatın sözlərinə görə, bu hər şeydən öncə o deməkdir ki, Azərbaycan ordusu quruda və havada olduğu kimi dənizdə də güclü ordular sırasındadır: "Nəzərə almaq lazımdır ki, "Beynəlxalq Ordu Oyunları-2018" yarışlarına qatılan ölkələrin hər birinin ordusu özlüyündə regional və qlobal müstəvidə ən güclü ordulardan hesab olunur. Məsələn, Rusiya Federasiyasının hərbi dəniz qüvvələri həm texniki göstəriciləri, həm də professionallığı ilə bütün dünyanın diqqət mərkəzində olan ordulardan biridir. Bu ordu Qara dənizdən birbaşa Yaxın Şərqdə olan hədəfləri dəqiq vurmaq qabiliyyətinə sahibdir. Belə müqayisə edən zaman Azərbaycan hərbi dəniz qüvvələrinin əldə etdiyi uğurun nə dərəcədə böyük olduğunu daha dəqiq görə bilərik.

Ancaq məsələnin başqa mühüm bir tərəfi də var ki, bu da olduqca vacibdir. Azərbaycan torpaqlarının 20 %-i Ermənistan ordusu tərəfindən işğal edilib. Hazırda biz müharibə şəraitində yaşayırıq və torpaqlarımız işğaldan azad edilənə qədər də bu, belə olacaq. Bu mənada nümayiş etdirdiyimiz güc, həm də işğalçılara layiqli cavabdır. Azərbaycanda ordu quruculuğu prosesi kompleks şəkildə aparılır və hazırda heç vaxt olmadığı qədər güclü ordumuz var. Bu ordu Aprel döyüşlərinə, Günnüt əməliyyatlarına imza atmış ordudur. Ona görə də işğalçı Ermənistan bütün bunlardan nəticə çıxarmalı Azərbaycan torpaqlarını sülh yolu ilə qaytarmalıdır. Əks təqdirdə Azərbaycan ordusunun gücünü bir daha öz üzərində görmək təcrübəsini yaşayacaq".

# Ermənistan əhalisinin 80%-dən çoxu yoxsulluq səviyyəsindən aşağı yaşayır



İnkişaf etmiş ölkələrdə əgər vətəndaşlar ailə büdcəsinin 25 faizini qidaya sərf edirsə onlar yoxsul sayılırlar. Lakin Ermənistanda əhalinin böyük əksəriyyəti öz büdcəsinin 65 faizini qidaya sərf edir. SİA-nın erməni mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Ermənistanın İstehlakçılar Birliyinin sədri Armen Poqosyan jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, bütün bunlar göstərir ki, Ermənistan əhalisinin 80 faizindən çoxu yoxsulluq səviyyəsindən də aşağı yaşayır: "Bu "parlaq" bir faktdır. Bunun fonunda ərzaq dayanmadan bahalaşır. Biz ötən il Yeni Zelandiya yağının kəskin şəkildə bahalaşdığının şahidi olduq. Bu ölkədə yağın qiyməti yenidən əvvəlki səviyyəyə qayıtsa da, bizdə yağın qiyməti ucuzlaşmadı. Bu il vətəndaşlar mövsümi məhsulların xüsusilə kartof, pomidor, bibər, badımcan və ən təəccüblüsü isə qarpızın qiymətinin nə qədər bahalaşdığını görür. (Avqust ayında 50-80 dram olan qarpızın indiki qiyməti 250 dramdır)".

Armen Poqosyan qeyd edib ki, ölkədə ətin qiyməti kəskin şəkildə bahalaşıb: " Ət il ərzində 12.4, təkcə iyul ayında isə 9.6 faiz bahalaşıb, yağın qiyməti isə qızılın qiymətinə yaxınlaşır. Belə ki, il ərzində yağın qiyməti 36 faiz, təkcə iyul ayında isə 34 faiz bahalaşıb.

**Nailə Məhərrəmova**

## İlin birinci yarısında Bakının metallurgiya sənayesində istehsal artıb

Cari ilin yanvar-iyun aylarında Bakı şəhəri üzrə metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 229,4 milyon manatlıq məhsul istehsal olunub. Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə hazır metal məmulatlarının istehsalı sahəsində 74,4 faiz, metallurgiya sənayesində isə 33,7 faiz artım müşahidə edilib. Əvvəlki ilin müvafiq dövrünə nisbətən sahə üzrə alüminium çubuqlar, millər və profillər 17,1 faiz, misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellərin istehsalı 2,8 dəfə, armaturun istehsalı 28,5 faiz artıb, qara metallardan digər konstruksiyaların istehsalı isə 33,9 faiz azalıb.

# İqtisadi modelin unikallığı

## *İlham Əliyev: "Azərbaycanın iqtisadi modelinin unikallığı bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir"*



Azərbaycanda son 15 ildə aparılan uğurlu, məqsədyönlü siyasət nəticəsində iqtisadiyyatın formalaşdırılması ölkədə işgüzar fəallığın daha da yüksəlməsinə, neft sektoru ilə yanaşı, qeyri-neft sektorunun da sürətli inkişafına, yoxsulluğun azalmasına əlverişli şərait yaradıb, əhalinin etibarlı sosial müdafiəsini və maddi-rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşılmasını təmin edib. Sevindirici hal ondan ibarətdir ki, cari ilin birinci yarısında da ölkə iqtisadiyyatında müsbət nəticələr əldə olunub və dinamik inkişaf templəri qorunubsaxlanılıb. Belə ki, bu dövrdə ÜDM 1,3 faiz, qeyri-neft sektoru 2 faiz, qeyri-neft sənayesi 8,8 faiz, kənd təsərrüfatı 7,6 faiz, bitkiçilik 14 faizdən çox, yükdaşımalar 1 faiz, informasiya və rabitə xidmətləri 4,9 faiz, pərakəndə ticarət dövriyyəsi 2,5 faiz artıb. Eyni zamanda, valyuta ehtiyatları artaraq 44,3 milyard ABŞ dollarına çatıb, ölkə iqtisadiyyatına 6 milyard manatdan çox sərmayə qoyulub, Bu ilin ilk 6 ayında əhalinin gəlirləri 9,3 faiz artıb, inflyasiya 3 faiz təşkil edib, əhalinin gəlirlərinin artım tempi inflyasiyanı dəfələrlə üstələyib. Hesabat dövründə xarici ticarət dövriyyəsi 35 faiz, ixrac 34 faiz, o cümlədən, qeyri-neft ixracı 20 faiz artıb. Xarici ticarətdə müsbət saldo 4,2 milyard dollara çatıb.

Bütün bunlar isə, son illər ərzində reallaşdırılan düşünülmüş iqtisadi siyasətin, qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan kompleks işlərin və investisiya mühitinin əlverişliliyinin nəticəsində mümkün olub: "Uzun illər Azərbaycan iqtisadiyyatına qoyulan vəsait, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı imkan verir ki, iqtisadiyyat dayanıqlı surətdə inkişaf etsin, bir sektordan - neft-qaz sektorundan asılı olmasın. Hətta dünyada neftin qiymətinin kəskin şəkildə düşməsi Azərbaycanın ümumi iqtisadi inkişafına təsir etməmişdir. Budur, Azərbaycanın iqtisadi modelinin unikallığı və bu göstəricilər bizim seçdiyimiz yolun nə qədər düzgün olmasını bir daha göstərir..." Ölkə Prezidenti neft və qazdan asılılığın azaldılması, qeyri-neft sektorunun sürətli inkişafı, sərmayə qoyuluşlarının artırılması, Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş infrastruktur layihələrinin tam icrası, xüsusilə, sosial infrastrukturla bağlı məsələlərin həlli, qazlaşdırma səviyyəsinin 95 faizə çatdırılması, məktəblərin tikintisi və təmiri, yeni Olimpiya idman komplekslərinin istifadəyə verilməsi, yeni yolların salınması, enerji sisteminin ən müasir əsaslarla idarə edilməsi istiqamətində mühüm vəzifələr müəyyənləşdirib.

### Vüqar Bayramov: "Ölkəmizdə qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın şaxələndirilməsi prioritetdir"

İqtisadçı Vüqar Bayramov sözügedən məsələ ilə bağlı bildirib ki, Azərbaycan neft ölkəsi olsa da, qeyri-neft sektorunun inkişaf etdirilməsi, eləcə də, neftdən asılılığın aradan qaldırılması hər zaman öndə duran məsələlərdəndir: "Bu gün qeyri-neft sektorunun inkişafı ilə bağlı bütün iqtisadi göstəricilərdə artım var. Eyni zamanda, qeyri-neft sənayesində 3,1 faiz artım qeydə alınıb. Bu, çox vacib idi. Çünki ötən il ölkə başçısı tərəfindən iqtisadi stabillik ili kimi elan edilmişdi. Bu ildə iqtisadi stabilliyin əldə edilməsi və 2014-cü ildən dünya bazarında neftin qiymətinin aşağı düşdüyü üçün dövlət gəlirlərimizin azalması səbəbindən yaranan çətinlikləri artıq stabilliklə əvəz olundu. Bu isə nəticə etibarilə 2018-ci ildə iqtisadi artımın, daha sonra sürətli iqtisadi artımın formalaşması baxımından vacib idi. İqtisadiyyatın şaxələndirilməsi prioritet olmaqla yanaşı, eyni zamanda, ölkə



iqtisadiyyatının daha dayanıqlı inkişafı baxımından vacibdir. Çünki biz neftdən asılılığı aradan qaldırdıqca daha dayanıqlı iqtisadi inkişafa və artıma nail ola bilirik. Xatırlayırsınızsa, bir müddət öncə, "Yeni əsrin müqaviləsi" imzalandı. Cənab Prezident xüsusilə, qeyd etdi ki, müqavilənin imzalanmasına baxmayaraq, Azərbaycanda qeyri-neft sektorunda bu günə qədər islahatlar aparılıb və bu, gələcəkdə də davam etdiriləcək. Bundan başqa, dövlətimizin başçısının sənaye parkları və məhəllələrinin, aqroparkların, iri fermer təsərrüfatlarının təşkili işlərinin davam etdirilməsi, müasir aqrotexniki texnologiyaların və elektron kənd təsərrüfatı sisteminin tətbiqi, yeni iş yerlərinin yaradılması, özünüməşğulluq proqramının icrası, sahibkarlara güzəştli kreditlərin verilməsinin və investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması və s. tapşırıqları ilə bağlı da müsbət nəticələr əldə edilib".

V.Bayramov onu da bildirir ki, Azərbaycan artıq iqtisadi cəhətdən azad ölkədir. Respublikada əlverişli biznes və investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə, milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alır. Bu isə liberal iqtisadi islahatların, düşünülmüş, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olub və Azərbaycan dövlətinin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən xəbər verir. Ölkə Prezidenti Cənab İlham Əliyev bildirib: "Azərbaycan çox möhtəşəm inkişafı hələ qabaqdadır. Azərbaycan bundan sonra da inamlı inkişaf yolu ilə gedəcək, beynəlxalq müstəvidə öz yerini möhkəmləndirəcək və bütün beynəlxalq təşəbbüslər xalqın maraqlarını müdafiə edəcəkdir".

### Qeyri-neft sənayesində 3,1 faiz artım qeydə alınıb

V.Bayramov qeyri-neft sənayesində 3,1 faiz artım qeydə alındığını bildirib: "Əslində, bu, kifayət qədər vacib bir məqamdır. Çünki Azərbaycan üçün aqrar sektor vacibdir. Bu sahədə 2,8 faiz artım müşahidə olunub. Eyni zamanda, sənayeləşmə ölkə üçün prioritetdir".

İqtisadçı onu da vurğulayıb ki, ölkə Prezidenti sahibkarlığın inkişafının dövlətimizin qarşısında dayanan əsas məqsəd olduğunu bildirib. Sahibkarlığın inkişafı baxımından hal-hazırda Prezidentin qarşıya qoyduğu məsələ idxal-ixrac prosesinin şəffaflaşdırılması, ölkəyə xarici investisiyanın, xüsusilə, qeyri-neft sektoruna xarici kapitalın qoyulmasıdır: "Dünya praktikasını nəzərə alaraq, qeyd etmək istəyirik ki, yalnız məhsulların qeydiyyatında elektronlaşma olarsa və bu sistem ölkədə şəffaflıq, keyfiyyətli xidmət reputasiyasını özündə birləşdirən ASAN xidmətə verilərsə, qarşıdakı müddətdə müəyyən nəticələr almaq olar. Eyni zamanda, regionlarda fəaliyyət göstərən sahibkarlar lisenziyanı 50% güzəştlə alacaqlar. Bütün bunları özündə formalaşdıracaq amillər sahibkarların xərclərində azalmalara səbəb olacaq. Bu isə regionlarda lisenziya və xüsusi icazə tələb edən sahibkarlıq fəaliyyətinin dəstəklənməsi baxımından olduqca vacib addımdır. Yuxarıda sadalananlara müvafiq olaraq, idxal-ixrac inhisarçılığının ləğvi və elektronlaşması sahibkarın xərclərini azaldacaq və bazara daha ucuz məhsulların çıxarılmasına şərait yaradacaqdır. Beləliklə, ölkəmizin qeyri-neft sektorunun inkişaf etdirilməsi hesabına enerji gəlirlərindən asılılığın aradan qaldırılmasına ünvanlanan islahatlara təkan verildi. Bu prioritetlərin reallaşması, birmənalı tərzdə ölkəmizdə diversifikasiya edilmiş iqtisadi inkişafa nail olmağa imkan yaratmaqla məşğulluq sferasında, istehlak və valyuta bazarında stabilliyin formalaşmasına səbəb olacaq".

Beləliklə, yuxarıda sadalanan sosial-iqtisadi uğurlar liberal iqtisadi islahatların, düşünülmüş, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olub və Azərbaycan dövlətinin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatmaq əzmindən xəbər verir. Ölkə Prezidenti İlham Əliyev deyib: "Azərbaycanın çox möhtəşəm inkişafı hələ qabaqdadır. Azərbaycan bundan sonra da inamlı inkişaf yolu ilə gedəcək, beynəlxalq müstəvidə öz yerini möhkəmləndirəcək və bütün beynəlxalq təşəbbüslər xalqın maraqlarını müdafiə edəcəkdir".

**RƏFİQƏ KAMALQIZI**



# Bakı ən populyar şəhərlər sırasındadır

## "MİR24" və "THE NATİONAL" bu mövzuda reportaj və məqalə hazırlayıblar

***"Qız qalası"ndan səmalara qədər uzanmaq. Azərbaycanın paytaxtı Bakı şəhəri yay səyahətləri reytinqində MDB-nin ən populyar şəhəri statusunu qazanıb. Belə ki, bu mövsümdə paytaxtı bir milyon turist ziyarət edib". Bu barədə "MİR24" kanalının müxbiri xüsusi reportaj hazırlayıb.***

Reportajını İçərişəhərdən başlayan müxbir deyib ki, bütün turistlər, praktiki olaraq, Bakı ilə tanışlıqlarını, məhz bu köhnə şəhərdən başlayır.

"Burada elə bir harmoniya mövcuddur ki, Şərqlə Avropanı birləşdirir, bura həm qədimdir, həm də müasir. Bununla da, o, insanları özünü cəlb edir. Həqiqətən də, çox xoş və gözlənilməzdir. Bütün bunlar mənim gözləntilərimi aşıb"-deyə Qazaxıstandan olan turist Dias Axmetov bildirib.

### Respublika yalnız qonaqpərvər deyil, eyni zamanda, ziyarətçilər üçün təhlükəsizdir

"MİR24"-ün müxbiri reportajına davam edərək deyir ki, hətta Bakıda olmasanız belə, siz bu kiçik küçəni mütləq tanıyırsınız. Kiçik Qalada sovet komediyası "Brilyant əl" filminin bir fraqmenti çəkilib. Ona görə də, Qayday komediyasını sevənlərin burada yıxılaraq, selfi çəkdirmələrindən təəccüblənmək olmaz.

Müxbir digər bir nüansa da toxunub. O, qeyd edib ki, Azərbaycanın paytaxtı onlarla filmin çəkiliş meydançası olub. "Onlar arasında "Amfibiya adamı", "Tehran-43", "Aybolit-66" və s. göstərmək olar. Ruslan və Lina permdəndirlər və xüsusilə, "Qız qalası"nda olmaq üçün Bakıya gəliblər. Bu qalanın nəyə görə tikilməsi və nə üçün istifadə edilməsi ətrafında alimlər bu gün də mübahisə edirlər"-"MİR24"-ün müxbiri reportajında əlavə edib.

O, Bakının və Azərbaycanın digər əsas amillərinə də toxunub: "Uzunmüddətli gəzintilərdən sonra susuzluğu aradan qaldıran və gücü geri qaytarmağa kömək edən də, məhz çaydır. Azərbaycanın ətirli içkisini armudu stəkanlarda verirlər və qəndlə deyil, Şərqin şirniyyatları və mürəbbələri ilə. Peterburqdan olan Milana Kulik üçün bu adət bir kəşf olub. Milli ornamentlərlə bəzədilmiş ipək örtüklər və xalçalar Azərbaycan suvenirləri arasında ən yaxşıları sırasındadırlar. Respublika yalnız qonaqpərvər deyil, eyni zamanda, ziyarətçilər üçün təhlükəsizdir. İlin əvvəlindən isə Azərbaycanı 2 milyon turist ziyarət edib".

### ...Və bütün bunlar Dubaydan, yaxud Əbu-Dabidən iki saat yarımlıq uçuş məsafəsindədir...

"Hazırkı zamanda Azərbaycan BƏƏ sakinləri üçün sonuncu variant olub və xüsusilə, növbəti İl bayramı üçün". Bu haqda isə "The National" qeyd edib. Bildirilir ki, burada Azərbaycanın Alov Qülləleri var ki, Köhnə şəhərin (İçərişəhər) gözəl divarlarından kənar göylərə ucalır. Eyni zamanda qeyd olunur ki, şəhərin orta əsrlərə aid hissəsi 1100-cü illərə qədər gedib çıxır: Karvansarayı mütləq ziyarət edin (yataq və səhər naharı 1500-ci illəri əks etdirir); 29 metrlik "Qız qalası"nı ziyarət edin və manqalda hazırlanmış balqabağ buterbrodlarını dadın.

Ötən ay qəbul edilmiş qərara görə, Azərbaycanı ziyarət edən BƏƏ vətəndaşları artıq vizalarını rahat şəkildə əldə edə biləcəklər. Qeyd edilir ki, daha öncə, vizalar Azərbaycan səfirliyindən alınmalı idi.

"The National" yazır ki, 9 milyon insanı əhatə edən çoxsaylı millətlər ölkənin tarixi boyu Avropanın və Asiyanın tərkib hissəsi olaraq görülür və bütün bunlar Dubaydan, yaxud Əbu-Dabidən iki saat yarımlıq uçuş məsafəsindədir.

Nəşr Azərbaycan səfirliyinin bəyanatının mətnini də diqqətə çatdırıb:

-BƏƏ-nin bütün vətəndaşları 1 aylıq viza ala bilərlər və qalmaq müddəti, eləcə də, BƏƏ-nin pasportu Azərbaycana daxil olan 120 gün müddətində qanuni çərçivədə olmalıdır.

"The National" digər asanlaşdırılmış viza tələblərini də diqqətə çatdırıb: "Azərbaycanda 15 gündən artıq yaşayan bütün xarici vətəndaşlar Dövlət Miqrasiya Xidmətində qeydiyyatda olmalıdırlar. Əgər 15 gündən artıq müddətdə qalmaq istəsəniz, buyurun, ziyarətinizin ilk günlərindən yaşadığınız oteldən xahiş edin və onlar sizə yardım göstərsinlər".

O cümlədən, xatırladılır ki, Ermənistanın Azərbaycanın işğal etdiyi əraziləri ziyarət etmiş şəxslərə yenidən Azərbaycanı ziyarət etmək üçün viza verilməyəcək.

Sonda isə bildirilir ki, turistlər İçərişəhərdə İpək yolu üzərindəki karvansarayda çay içə, mağara yaxud, yeraltı restoranlarda nahar edə və Qobustan mağaralarındakı qədim rəsm əsərlərinə baxa bilərlər. "Həqiqətən də, şəhərin bir çox maraqlı yerlərini ziyarət etmək olar"-deyə bildirilir.

*Rövşən RƏSULOV*




## Qida Təhlükəsizliyi Agentliyi yoluxucu heyvan xəstəlikləri ilə bağlı xəbərdarlıq edir

Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) əhaliyə xəbərdarlıq edir.

Bu barədə AZƏRTAC-a agentliyin informasiya təminatı və innovativ həllər şöbəsindən məlumat verilib. Xəbərdarlıqda deyilir: Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı tərəfindən Gürcüstanın Samtsxe-Cavaxetiya regionunda qaramalda nodulyar dermatit xəstəliyinin yayılması müəyyən edilib. Bununla əlaqədar olaraq, bu ölkədən qaramalın idxalı ilə bağlı müraciət edən hüquqi və fiziki şəxslər Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının müvafiq tələblərini nəzərə almalıdırlar. Eyni zamanda, nəzarət tədbirlərinin gücləndirilməsi üçün Gürcüstanın Samtsxe-Cavaxetiya regionundan gələn və ya həmin ərazidən tranzit keçən nəqliyyat vasitələrinin gömrük keçid məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən Dövlət Gömrük Komitəsinə aidiyyəti üzrə müraciət olunub.

## Yarım ildə paytaxtda pərakəndə ticarət dövriyyəsinin həcmi 2,8 faiz artıb

Yanvar-iyun aylarında Bakıda pərakəndə ticarət dövriyyəsinin həcmi əvvəlki ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,8 faiz artaraq 9 milyard 505,8 milyon manata çatıb. Bakı Şəhər Statistika İdarəsindən AZƏRTAC-a bildiriblər ki, qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış məhsulların həcmi əvvəlki ilin eyni dövrünün səviyyəsini 2,8 faiz üstələyərək 9 milyard 502,1 milyon manat olub.

Hesabat dövrü ərzində paytaxtın pərakəndə ticarət şəbəkəsindən bir istehlakçı məhsulların alınmasına 2017-ci ilin eyni göstərici ilə müqayisədə orta hesabla ayda 33,1 manat daha çox vəsait xərcləyib.

Yanvar-iyunda pərakəndə ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri 2017-ci ilin eyni ayları ilə müqayisədə 2 faiz artaraq 4 milyard 359,8 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 3,5 faiz artaraq 5 milyard 146 milyon manata bərabər olub. Dövriyyənin ümumi həcmində qeyri-ərzaq məhsullarının xüsusi çəkisi ötən ilin eyni dövrü ilə müqayisədə 0,6 faiz artaraq 54,1 faiz təşkil edib.

İlin əvvəlindən istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 39,6 faizi ərzaq məhsullarının, 6,3 faizi içkilər və tütün məmulatlarının, 13,4 faizi toxuculuq məhsulları, geyim, ayaqqabıların, 4,4 faizi elektrik malları və mebelin, 2,6 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 2,4 faizi əczaçılıq və tibbi malların, 7,3 faizi avtomobil yanacağının, 24 faizi isə digər qeyri-ərzaq məhsullarının alınmasına sərf olunub. Hesabat dövründə elektron qaydada pərakəndə ticarət şəbəkəsində 19,8 milyon manatlıq və ya 2017-ci ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 12,9 faiz az istehlak məhsulları satılıb. Satışın bu növü vasitəsilə qeyri-ərzaq məhsulları realizə edilib.

## İyulda 6 min 738 vergiödəyicisi qeydiyyatdan keçib

Cari ilin iyul ayı ərzində 6 min 738 vergiödəyicisi qeydiyyatdan keçib. Vergilər Nazirliyinin media və kommunikasiya mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, bunlardan 1110-u hüquqi şəxs, 5 min 628-i isə fiziki şəxsdir.

Ay ərzində qeydiyyata alınmış hüquqi şəxslərin 69,8 faizi, fiziki şəxslərin isə 1,8 faizi elektron qaydada qeydiyyatdan keçib. Bundan başqa, ötən ay 1354 nəzarət-kassa aparatı qeydiyyata alınıb, 3 min 997 təsərrüfat subyekti isə fəaliyyətini bərpa edib. Ay ərzində 1324 təsərrüfat subyekti ləğv edilib.

# “Ərəb NATO”su: “Ərəb baharı”ndan sonra yeni təhlükə

***ABŞ mətbuatı Vaşinqtonun Yaxın Şərqdə yeni layihə həyata keçirməyə hazırlaşdığı barədə informasiyalar yaymaqdadır. Belə bir fikir irəli sürülür ki, Amerika bir neçə ərəb ölkəsindən ibarət antiiran mahiyyətli yeni hərbi blok formalaşdırmağı düşünür. Hətta bu ilin payızında həmin məsələnin müzakirəsi nəzərdə tutulur. Amerika ərəb dövlətlərinin sammitini təşkil etməyi düşünür. Ancaq hansı müsəlman ölkəsinin bu prosesdə iştirak edəcəyi məsələsi aydın deyil. Yayılan informasiyalarda adı çəkilən ərəb dövlətlərinin həm bir-birinə, həm də İrana münasibətində qaranlıq məqamlar az deyil. Buna baxmayaraq, belə bir informasiyanın yayılmasının özü təhlükəlidir.***

Burada siyasi, ideoloji, diplomatik və hərbi faktorların qarşılıqlı təsirlərini nəzərə almaq gərəkdir. Özü də bu faktorların məzhəb bölgüsü kimi çox təhlükəli bir məqama necə təsir edə biləcəyi aydınlaşmalıdır. Bütün bunların fonunda “Ərəb NATO”su kimi ideyaların mümkün geosiyasi nəticələri üzərində dayanmağa ehtiyac görürük.

### Kənardan təsirlər: Yaxın Şərqin geosiyasi problemləri

Kütləvi informasiya vasitələri ABŞ-ın Yaxın Şərqdə yeni geosiyasi oyuna başlaması barədə məlumatlar yayır. Vaşinqton başlıca olaraq İrana qarşı regional güc formalaşdırmağa çalışır. Həmin güc hərbi xarakterli olmalıdır. Ekspertlər onu şərti olaraq “Ərəb NATO”su adlandırırlar. “The Atlantic” nəşri vurğulayır ki, Amerika bu hərbi bloklaşmaya özünə yaxın ərəb ölkələrini cəlb etmək fikrindədir. Onların sırasına Misir, İordaniya, Oman, Səudiyyə Ərəbistanı, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri və Qətər daxil olmalıdır.

Təbii ki, siyahının konkret necə olduğunu demək çətindir. Ancaq burada önəmli olan informasiyanın məzmunudur. Çünki sadalanan ölkələrin əhalisinin böyük əksəriyyəti sünnilərdir. Deməli, kimlərsə məzhəb münasibətlərini yeni səviyyədə qızışdırmaq niyyətindədir.

Eyni zamanda, ekspertlər vurğulayırlar ki, hərbi blokda birləşməsi nəzərə tutulan ölkələrin həm bir-birinə, həm də İrana münasibəti fərqlidir. Misir İran məsələsində çox ehtiyatlıdır, lakin Qahirənin İsraillə münasibətlərində də bir istilik axtaranlar az deyil. Qətər İranla yaxşı münasibətlərdədir. Məhz bu faktora görə, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri Qətərə qarşı sərt addımlar atdılar və hətta bəzi informasiyalara görə, hərbi hücum barədə düşünürlərmiş. Bəs indi Qətərin Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə bir hərbi blokda İrana qarşı savaşmaq istəyində olması haqqında danışmaq nə dərəcədə məntiqidir? Bunlardan başqa, Küveyt və Omanın da İranla müəyyən əlaqələrinin olduğu sirr deyil.



Lakin Pentaqonun bu il oktyabrın 12-13-də sadalanan ölkələrin hərbi rəhbərlərinin sammitini təşkil etmək fikrində olması barədə informasiyalar yayılıb. Belə təəssürat yaranır ki, ABŞ sözdə deyil, konkret fəaliyyətdə yuxarıda vurğulanan tədbiri keçirməyə çalışır. Onu da nəzərə almaq lazım gəlir ki, Vaşinqton diplomatik müstəvidə İrana qarşı kifayət qədər sərt mövqe nümayiş etdirir. Tehranı tez-tez hədələyir. Bu prosesdə Təl-Əvivin fəallığı da diqqətdən kənarda qalmır. Bununla yanaşı, Donald Tramp Tehranla danışıqlar aparmağa hazır olduğunu da ifadə edir. Bütün bunların fonunda “Ərəb NATO”su haqqında deyilənləri necə anlamaq olar?

Öncə vurğulamaq gərəkdir ki, bütövlükdə Yaxın Şərqdə geosiyasi vəziyyət kifayət qədər gərgin olaraq qalır. Hətta Bəşər Əsəd ordusunun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar belə Suriyadakı ümumi durumu yaxşılaşdıra bilmir. Sanki Suriyanın legitim hakimiyyətə belə ehtiyacı yoxdur. Digər tərəfdən, Holan təpələri ətrafında böyük dövlətlərin apardıqları oyun getdikcə daha qabarıq şəkildə özünü göstərir. Bu çərçivədə son zamanlar daha çox Rusiya-İsrail münasibətlərindən danışılır. Moskva həmin ərazidə rus hərbi patrulunun yaradılması haqqında təklif vermişdi. Ancaq Təl-Əviv bununla razılaşmadı.

Yəməndə də durum ağır olaraq qalır. Husilərlə Səudiyyə Ərəbistanının savaşı davam edir. Misir ehtiyatlı da olsa, bu prosesdə iştirak edir. Qətərlə bir sıra Körfəz dövlətləri arasında gərginlik davam edir. ABŞ İrana qarşı sanksiyaları gücləndirir və müttəfiqi Türkiyədən də bu prosesə qoşulmağı tələb edir. Bundan başqa, Ankara Suriya və İraq istiqamətlərində fəallığını azaltmır.

Bütün bunlar regionun mürəkkəb geosiyasi dinamikada olduğunu təsdiqləyir. Bu şəraitdə İrana qarşı iqtisadi-maliyyə tədbirlərinin ölkə daxilində vəziyyəti çətinləşdirdiyini də vurğulamaq zəruridir. Avqust ayında insanlar bir neçə şəhərdə etiraz aksiyaları keçiriblər. Onlar sosial-iqtisadi vəziyyətin ağırlaşmasına etiraz edirlər. Hətta parlamentdə Prezident Həsən Ruhaninin bu məsələ ilə əlaqədar izahat verməsini tələb edənlər də oldu.

### İkinci cəbhə: Vaşinqtonun təhlükəli oyununda yeni ssenari

Deməli, Yaxın Şərqdə vəziyyət doğrudan da çox həssasdır və istənilən an onu tarazlıqdan çıxarmaq olar. Bunun üçün “Ərəb NATO”su yaratmaq mümkündürmü? Mümkündürsə, onun hansı nəticələri ola bilər? Təsəvvür edək ki, regionda bir neçə ərəb dövləti ilə İranın savaşı başlayır. O halda bütün diqqətlər İsrail-Ərəb dünyası ziddiyyətlərindən yayınıb sünni-şiə qarşıdurmasına yönələcək. Və tam əmin olmaq olar ki, maraqlı dairələr məzhəb savaşını qızışdırmaq üçün yeni-yeni təxribat xarakterli informasiyalar yayacaqlar. Nəticədə, faktiki olaraq müsəlman ölkələri arasında uzunmüddətli ixtilaf prosesi başlaya bilər.

Təbii ki, İran zəif dövlət deyil. O, ərəb ölkələrinə hərbi zərbələr endirə bilər. Səudiyyə Ərəbistanına yeni silahların satılması faktını kimsə unutmur. Yəni Ər-Riyad da cavab tədbiri görə bilər. Üstəlik, Səudiyyə Ərəbistanının arxasında duran qüvvələr ona yeni silahlar da verə bilərlər. Bizcə, yekun mənzərəni təsəvvür etmək çətin deyil. Bütün müsəlman aləmini alov bürüyə bilər. Bu da tarixi bir faciəyə yol aça bilər.

Yaxın Şərqdə keçən əsrin 50-60-cı illərindən başlayaraq formalaşmış münasibətlər sistemi geosiyasi olaraq da dağılar. Onun əvəzində müsəlman ölkələrinin bir-birinə qarşı məzhəb bölgüsünə əsaslanan düşmənçilik münasibətləri yaranar. Belə vəziyyətin kimlərə sərf etdiyi gün kimi aydındır. Hər şeydən öncə, bir neçə ildir ki, Türkiyənin müsəlman ölkələrini bir araya gətirmək istiqamətində atdığı faydalı addımların təsiri yox olar. İslam Əməkdaşlıq Təşkilatı çökər. Müsəlman dövlətləri arasında ortaq mövqeyə gəlmək şansı minimuma enər.

Belə çıxır ki, “Ərəb NATO”su ideyası hərbi aspektdə təhlükəli və əsası olmayan bir planla bağlıdırsa, digər tərəfdən, İrana diplomatik-ideoloji təzyiq formalarından biridir. Donald Tramp öncə qorxudur, sonra danışıq təklif edir. Bu üsulda başlıca məqsəd Amerikanın marağına uyğun bir vəziyyət yaratmaqdır. Bunu Koreya yarımadasının misalında gördük. İndi də Vaşinqton İranı heç də parçalamaq və ya məhv etmək niyyətində deyil. Onun əsas məqsədi özünə yaxın Tehran rejimi formalaşdırmaqdan ibarətdir. Bu, alına bilərmi?

Müasir geosiyasi şəraitdə, təbii ki, bu suala birmənalı cavab vermək çox çətindir. Onu da nəzərə almaq lazımdır ki, İran diplomatiyası kifayət qədər təcrübəlidir. Yəni İranı asanlıqla aldatmaq və ya təxribata çəkmək ehtimalı azdır. Onu bu məsələdə Türkiyənin də müdafiə etməsi kiçik faktor deyil. Konkret deyilsə, İranı maliyyə-iqtisadi cəhətdən nə qədər ağır vəziyyətə salsalar da, Vaşinqtona güzəştə gedəcəyini gözləmək elə də real görünmür. Əvəzində, İran bir sıra istiqamətlərdə elə zərbələr alar ki, onun uzun müddət cəmiyyət və dövlət olaraq özünə gəlməsi xeyli çətinləşər.

Biz İran cəmiyyətinin ağır iqtisadi vəziyyət və geosiyasi təhdidlərin təsiri altında müharibə paradiqmasına köklənə bilməsi variantını nəzərdə tuturuq. Bu, İranın inkişafını uzun müddətə ləngidə bildiyi kimi, onu aqressivləşdirə də bilər. O halda regional miqyasda yeni münaqişə ocaqlarının yaranması istisna deyil. Deyək ki, zərbəni özündən yayındırmaq üçün Ermənistanı yeni-yeni təxribatlar törətməyə təhrik edə bilər. Bunun acı nəticələr verə biləcəyinin əlavə sübuta ehtiyacı yoxdur.

Belə qənaət əldə edilir ki, “Ərəb NATO”su deyilən ideya müsəlman dünyasını bədnam “Ərəb baharı” qədər parçalaya bilər. Onun ən təhlükəli cəhətlərindən biri İslam aləmində məzhəb ziddiyyətlərinin kəskinləşməsi olar. Daha təhlükəlisi isə odur ki, məzhəb bölgüsünə görə müsəlman dövlətlər bir-biri ilə müharibə apara bilər. Bunun olduqca faciəvi sonuclar verə biləcəyinə şübhə yoxdur.

Vurğulanan məqamlar müsəlman ölkələri arasındakı münasibətlərin tezliklə yaxşılaşdırılması zərurətini bir daha ortaya qoyur. Qlobal geosiyasi problemlərin həllində müsəlman dövlətlərinin ortaq mövqedən çıxış etməsinə ehtiyac getdikcə daha çox hiss olunur. O cümlədən BMT Təhlükəsizlik Şurasına müsəlman ölkələrindən də salınması gərəkdir. Əks halda, dünyanı barış içində saxlamaq getdikcə daha çətin ola bilər. Hazırkı şəraitdə böyük güclərin müsəlman ölkələrinə qarşı tutduqları mövqe qətiyyən qəbul edilə bilməz. Ancaq həmin supergüclər və onların havadarlıq etdikləri bir sıra dövlətlər ağlabatan addımlara hazırdırlarmı? Ədalətli olmaq niyyətləri mövcuddurmu? Bu sualların cavabı məlum deyil.

***Newtimes.az***

# MDB ölkələrindən olan turistlər Azərbaycanı seçirlər

***Azərbaycanın paytaxtı Bakı MDB ölkələrinin yay səyahəti reytinqində ən populyar şəhərə çevrilib. Cari mövsümdə Bakını bir milyondan çox turist ziyarət edib. AZƏRTAC bu barədə mir24.tv telekanalına istinadla xəbər verir. Turistlər öz müsahibələrində Bakıda Şərqin və Avropanın harmoniyasının hökm sürdüyünü qeyd ediblər. Bu, qədim və eyni zamanda, müasir şəhərdir. Məhz bununla da turistləri özünə cəlb edir. Kiçik Qala küçəsində "Brilyant əl" sovet komediyasının bir fraqmenti çəkilib. Bu səbəbdən də Qayday komediyasını sevənlər hər gün burada "yıxılır" və selfi ilə bu anı xatirəyə çevirirlər.***


НОВОСТИ ФОТО ВИДЕО СТАТЬИ ТЕСТЫ 24 МИР ФИЛИАЛЫ ПРОГРАММ
14:28 8 августа НОВОСТИ ЕЭК ЕВРАЗИЙСКИЙ СОЮЗ ГОСТИ ЭФИРА БОЛЬШОЕ ИНТЕРВЬЮ
ПОЛИТИКА ОБЩЕСТВО ЭКОНОМИКА КУЛЬТУРА ПРОИСШЕСТВИЯ В СОДРУЖЕСТВЕ В МИРЕ СПОРТ ШОУ-БИЗНЕС КУХНИ МИРА

Баку – самый популярный город СНГ для летних путешествий

08:08 08/08/2018

АЗЕРБАЙДЖАН/ БАКУ

ТУРИСТЫ ВЫБИРАЮТ АЗЕРБАЙДЖАН

КУЛЬТУРА СЪЕМКИ ФИЛЬМА ВАЛЕРИЯ ТОДОРОВСКОГО "ОДЕССА" ПРОХОДЯТ В МОСКВЕ САМАРА +20°..+18°

ФОТО : МТРК «МИР» / Татьяна Поддубская

АЗЕРБАЙДЖАН

Дотянуться до небес с Девичьей башни. Столица Азербайджана стала самым популярным городом Содружества в рейтинге летних путешествий. В этом сезоне город посетили более миллиона туристов. Почему иностранцы выбирают Баку, узнала корреспондент «МИР 24» Арзу Юнус.

Ичеришехер – визитная карточка Баку. Практически все туристы знакомство со столицей начинают в Старом городе. Красота и самобытность древневосточной

Яндекс.Директ
Знакомства с незамужними
Одинокие женщины ищут серьезных отношений. Регистрируйся и найди пару!
loveeto.ru ›
Недорого и удобно – Кучугуры 2018
Путешествуй! Кучугуры дешевле чем в турах. Выбирай и бронируй отель онлайн!
ostrovok.ru ›

Киномания
Гонорар как рулетка: сколько кинозвезды получают в России и Голливуде
Крымский «Голливуд». Как в солнечном крае снимали любимые всеми фильмы
С полуслова: лучшие актерские дуэты в кино

Azərbaycan paytaxtı onlarca film üçün çəkiliş meydançası olub. Bu filmlər arasında "Amfibiya adam", "Tehran-43", "Aybolit-66" və s. göstərmək olar. Ruslan və Lina Perm şəhərindən məxsusi olaraq Qız Qalasını görmək üçün Bakıya gəliblər. Bu qalanın tikilmə səbəbi və ondan vaxtilə necə istifadə edildiyi barədə alimlər indiyədək mübahisə aparırlar. Bir neçə saatlıq gəzintidən sonra susuzluğu yatırmağa və itirilmiş enerjini bərpa etməyə çay kömək edir. Azərbaycanda bu ətirli içkini armudu stəkanda təkcə qəndlə deyil, Şərq şirniyyatları və mürəbbə ilə masaya verirlər. Sankt-Peterburqdan olan Milana Kulik üçün bu ənənə bir kəşf oldu.

Milli naxışlı ipək yaylıqlar və xalçalar Azərbaycandan olan ən yaxşı suvenirlər siyahısındadır. Respublika təkcə qonaqpərvər deyil, həm də ziyarət üçün təhlükəsiz ölkədir. Əlavə edək ki, bu ilin əvvəlindən Azərbaycanı təxminən 2 milyonadək turist ziyarət edib.

# On milyard kubmetr Xəzər qazı Türkiyə və Cənubi Avropaya nəql ediləcək

## *"S&P Global" : "Cənub Qaz Dəhlizi"nə ABŞ-ın İrana qarşı sanksiyalarından istisna olunmaq icazəsi verilib"*

Yenidən qüvvəyə minən ABŞ-in İrana qarşı sanksiyaları Azərbaycanın Xəzərdəki "Şahdəniz-2" yatağında BP şirkəti ilə birlikdə hasilat həyata keçirən İranın "NİOC" şirkətinə şamil olunmur. Ümumiyyətlə, yeni tətbiq olunan sanksiyalar istər hasilatda, istərsə də nəqliyyatda Azərbaycanın xahişi ilə tərəfdaşı olan İran şirkətlərinə, "Cənub Qaz Dəhlizi" iştirakçısı olan İran şirkətlərinə aid deyil.

Onu da qeyd edək ki, BP-nin Şimal dənizində İran Milli Neft Şirkəti ilə birlikdə hasilat apardığı "Rhum" qaz yatağı isə sanksiyalar düşüb və BP-nin xahişi nəzərə alınmayıb.

Bu arada, ABŞ-da yerləşən və əsasən, enerji sahəsində informasiya mübadiləsi həyata keçirən "S&P Global" şirkətinin verdiyi məlumatına görə, "Cənub Qaz Dəhlizi"nə ABŞ-ın İrana qarşı sanksiyalarından istisna olunmaq icazəsi verilib. Ekspertlər bunu ildə 10 milyard kubmetr Xəzər qazını Türkiyə və Cənubi Avropaya nəql edəcək layihə üçün uğur hesab edirlər. Bu barədə sərəncamın prezident Donald Tramp tərəfindən imzalandığı xəbər verilir. Xəbərdə deyilir ki, Azərbaycanın "Şahdəniz" qaz yataqlarının işlənməsi üçün sanksiyalardan istisna olunmaq hüququnu BP şirkəti əldə etməyə çalışırdı. Belə ki, bu layihə ona görə ABŞ sanksiyalarının təhlükəsi altında idi ki, İranın "NICO" şirkəti bu layihədə 10 faiz paya malikdir.

### Trampın avqustun 6-da imzaladığı istisna sərəncamı BP-nin Şimal dənizindəki "Rum" yatağına şamil edilməyəcək




Qeyd edək ki, ABŞ-ın noyabrın 4-dən qüvvəyə minəcək sanksiyaları ABŞ-ın maliyyə sistemindən istifadə edən şirkətlərə İranla biznesi qadağan edir. İran neftinin idxalından asılı olan ölkələr ABŞ-dan istisna hüququ almaq üçün səylərini davam etdirirlər.

Digər tərəfdən, o da xəbər verilir ki, Trampın avqustun 6-da imzaladığı istisna sərəncamı BP-nin Şimal dənizindəki "Rum" yatağına şamil edilməyəcək. Burada da İranın Milli Neft Şirkətinin şərikliyi var. Belə ki, BP-nin ötən il bu yatağı "Serica Energy" şirkətinə satmaq barədə saziş imzalaması da ABŞ sanksiyalarından kənarda qalmaq məqsədi güdür.

Xəbərdə, həmçinin, deyilir ki, Trampın sərəncamında, konkret olaraq, "Şahdəniz"in adı çəkilmir və söhbət yalnız "təbii qaz layihəsindən" gedir. Buna baxmayaraq, sərəncamda əsas olaraq İran Təhlükəsinin Azaldılması və Suriya İnsan Haqları Aktı 2012-ci il tarixli ABŞ qanunu göstərilir. Artıq bu qanunda, konkret olaraq, "təbii qaz yataqlarının inkişaf etdirilməsinə və qazın Azərbaycandan Türkiyə və Avropaya nəqlinə" sanksiyalardan güzəşt nəzərdə tutulur.

### Vaşinqton işarə edib ki, bu sanksiyalardan bir sıra zəruri istisnalar mümkündür

Londonda mənzillənmiş "Argus Media Enerji" informasiya saytı isə yazır ki, ABŞ-ın İranın enerji sektorunu hədəfləyən sanksiyalarından Azərbaycanın "Şahdəniz" yatağından qazın nəqlinə istisna veriləcək.

Qanunda deyilir ki, bu qaz kəməri Türkiye və Avropanın enerji təhlükəsizliyini gücləndirməli və Rusiyadan enerji asılılığını azaltmalıdır. ABŞ-ın İrandan neft alan ölkələrə qarşı sanksiyaları qlobal bazarda neft təchizatını günə bir milyon barrel azaltmalıdır. ABŞ hökuməti dünya ölkələrini İrandan neft idxalını sıfıra endirməyi tələb edir, lakin Vaşinqton işarə edib ki, bu sanksiyalardan bir sıra zəruri istisnalar mümkündür.

***Rövşən NURƏDDİNOĞLU***



# Muxtar respublikaya 6 ay ərzində 196 minə yaxın turist gəlib

***Bu ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasına ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən 195 min 886 turist gəlib ki, bu da 2017-ci ilin müvafiq dövründəki göstəricidən çoxdur.***

Naxçıvan Muxtar Respublikasının Turizm Departamentindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, departament tərəfindən 2018-ci ilin iyul ayında turizmin inkişafı istiqamətində ardıcıl tədbirlər görülüb, reklam informasiya materiallarının hazırlanması və ekskursiya işi diqqətdə saxlanılıb, müxtəlif piyada marşrutları və səyahət paketlərinin hazırlanması istiqamətində iş aparılıb.

Təbliğat işində gənclərin fəallığının artırılması məqsədilə Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi"nin iştirakçılarına Naxçıvan Muxtar Respublikasının turizm potensialının tanıdılmasında gənclərin rolu" mövzusunda tədbir keçirilib. Naxçıvan Turizm İnformasiya Mərkəzinə müraciət edən turistlərin sorğuları aidiyyəti üzrə cavablandırılıb, mərkəzin sosial şəbəkələrdəki səhifələrinə muxtar respublikanın tanıdılması məqsədilə mütəmadi məlumatlar və fotoşəkillər daxil edilib.

# Anna Akobyanın “sülh carçısı” olmaq arzusu

## Yaxud şəhid bacısının Paşinyanın arvadına tutarlı cavabı



Ermənistanda hakimiyyəti ələ keçirər-keçirməz Azərbaycanla təzyiq dilində danışmağın vacib olduğunu deyən Nikol Paşinyanın müharibə ritorikasını nümayiş etdirməsi və bunun ardınca, Azərbaycan Ordusunun Naxçıvanda uğurlu əməliyyat keçirərək, onun öz sözlərini elə özünə də yedirtməsi sonradan erməni bicliyinin digər fazasına qədəm qoydu. Bu dəfə Nikol Paşinyan arvadını “birinci ledi” obrazında və “sülh carçısı” qismində təqdim etməyə çalışması həmin bicliyin təməl hissələrindən biri olaraq qiymətləndirildi. Ümumiyyətlə, mövzuya keçməmişdən öncə, “əzabkeş”, “məzlum”, hətta “mələk” kimi görüntüləri yaratmaqla, digər millətləri və xalqları özlərinə cəlb etməyə cəhd edən ermənilərdən başqa heç nə gözləməyə də dəyməz.



### Anna Akobyanın azərbaycanlı ana-bacılarına həqarəti...

İndi isə keçək mövzunun əsas hissəsinə. Məhz Paşinyanın arvadı Anna Akobyanın Moskvaya ilk səfəri zamanı özünün “təşəbbüsü” ilə yaratdığı “Qadınlar sülh naminə” tədbirində çıxışı zamanı onun əsl erməni həyasızlığı ilə azərbaycanlı analara müraciət etməsi və Qarabağ münaqişəsinin necə başlanmasının heç bir əhəmiyyət kəsb etməməsini deməsi, əslində, övladlarını, atalarını, qızlarını itirən analara bir həqarət oldu. Bəli, məhz həqarət!

“Düşünürəm ki, münaqişənin necə başlanması vacib deyil. Əsas olan insan taleyidir, münaqişəyə görə canlarından keçən gənclərin həyatıdır. İstəyirəm ki, bu sözlərim Azərbaycana çatsın”-deyən Paşinyanın arvadının bu “təşəbbüskar” mesajı, əslində, Azərbaycana çatdı və “sülh carçısı”na verilən cavab onun həmin “təşəbbüsünün”, bilavasitə riyakarlıq üzərində qurulduğunu sübuta yetirdi.

### Bir bacının tərs şilləsi, yaxud “sülh göyərçini”nin müharibə qarğasına çevrilməsi

Qarabağ müharibəsində döyüşmüş iki qardaşın bacısı mətbuat vasitəsilə Anna Akobyana tutarlı və layiq olduğu cavabı bu cür verib. Hətta deyərdim ki, ona bu cavabı ilə tərs şillə də vurub. Ona görə də, mövzunu uzatmayaraq, birbaşa bacımızın ifadələrinə yer verirəm. SİTAT: “Anna Akobyana müraciət etmək istəyirəm. Siz alnından güllə yarası alan üç yaşlı körpəsini əlində tutan ananın acısını təsəvvür edə bilərsiniz? Bilirsiniz ki, Xocalıda qətlə yetirilmiş azərbaycanlı qadın və uşaqların cəsədləri təhqir edilib? Bununla bağlı videokadrlar və şəkillər var. Əgər Qarabağ münaqişəsinin necə başlanmasının vacib olmadığını deyirsinizsə, bu məsələdən xəbərdarsınız. Əlbəttə, bu, sizin üçün vacib deyil. Çünki siz təcavüzkarsınız. Başqasının torpaqlarını işğal etmisiniz. Siz günahsız insanları öldürmüsünüz və öldürməkdə davam edirsiniz.

Siz sülh deyirsiniz? Torpaqlarımızın hələ də işğal altında olmasını nəzərə alsaq, hansı sülhdən danışmaq olar? Siz 27 il müddətində göz yaşları ilə oyanmanın nə olduğunu bilirsiniz? Xeyr. Amma mən bilirəm. 1992-ci il oktyabrın 18-də erməni işğalçıları Azərbaycanın Qubadlı rayonuna hücuma keçiblər. Topağac yüksəkliyi uğrunda gedən döyüşlərdə qardaşım Rahim Xavər oğlu Alışov erməni gülləsinə tuş gəlib. O, mənim qollarımda üç uşağını qoyaraq, vətən uğrunda şəhid olub. Bu uşaqlar sizi necə bağışlaya bilərlər? “Google”da axtarış verin: “Balaca Zəhranın qətli” və başa düşəcəksiniz ki, sülhdən danışmaq sizin haqqınız deyil. Siz sülhdən danışırsınız, ancaq oğlunuz işğal etdiyiniz və Ermənistan silahlı qüvvələrinin vaxtaşırı dinc Azərbaycan kəndlərinə diversiya həyata keçirdiyi Qarabağ bölgəsində xidmət edir. Qadın böyük qüvvədir. Yarımmistik ifadələr danışmaqdansa, blok yaradılması təşəbbüsü ilə çıxış edin: “Qarabağı qaytaraq və sülh şəraitində yaşayaq”. Əminəm ki, Ermənistanda sizi dəstəkləyəcək çox sayda qadın və əsgər anası var...”

Bax, belə...Əziz oxucular. Görək, bu tutarlı cavabdan sonra “sülh göyərçini” necə müharibə qarğasına çevriləcək. Gözləyək...

**RÖVŞƏN**

# Mənəvi Dəyərlərin Təbliği Fondunun nümayəndələri Türkiyədə səfərdədir



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyi Türkiyə Diyanət Vəqfinin dəvəti ilə bu ölkədə səfərdədir. Bu barədə AZƏRTAC-a Dini Qurumlara İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

Səfərin məqsədi Türkiyə Diyanət Vəqfi və Mənəvi Dəyərlərin Təbliği Fondu arasında qarşılıqlı əlaqələrin və əməkdaşlığın perspektivlərinin müzakirəsi, təcrübə mübadiləsinin aparılması, eyni zamanda, bu istiqamətdə digər faydalı görüşlərin keçirilməsidir. Avqustun 7-dən 11-dək davam edəcək səfər çərçivəsində ilk görüş Türkiyə Diyanət Vəqfində baş tutub. Görüşdə Vəqfin müxtəlif şöbələrinin məsul şəxsləri qurumun strukturu və fəaliyyət istiqamətləri haqqında məlumat verib, mənəvi dəyərlərin qorunması, təbliği sahəsində əməkdaşlığın önəmini vurğulayıblar.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru bildirib ki, qurumun başlıca fəaliyyəti əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan milli mənəvi dəyərlərin təbliği siyasətinin davam etdirilməsidir. O, dövlət-din münasibətlərinin tənzimlənməsi və dini maarifləndirmə sahəsində Fond tərəfindən həyata keçirilən tədbirlər, planlaşdırılan layihələrdən söz açıb. Həmçinin iki qurumun əməkdaşlıq üçün geniş potensialının mövcudluğunu diqqətə çatdırıb.

# Ötən ay muxtar respublikada 315 işaxtaran işlə təmin olunub




Ötən ay ərzində muxtar respublikanın məşğulluq mərkəzləri tərəfindən 315 işaxtaran müxtəlif sahələrdə işlə təmin olunub. Onların 109-u gənc, 67-si qadın, 9-u sağlamlıq imkanları məhdud şəxs, 4-ü isə ünvanlı sosial yardım təyini üçün müraciət edənlərdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, ötən ay 77 nəfər müvəqqəti xarakterli işlərə göndərilib, əhalinin məşğulluğunun təmin edilməsi tədbirləri çərçivəsində uzun müddət ünvanlı dövlət sosial yardımı alan 21 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu və xırdabuynuzlu mal-qara verilib. Həmçinin kənd xidmət mərkəzlərində fəaliyyət göstərən bərbərxana, gözəllik salonu və dərzi sexlərində 3 bərbər və 10 bərbər-manikürçü işlə təmin edilib. Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə tədris-hazırlıq, kinooperator hazırlığı üzrə təlim, eləcə də qazanxana maşinisti peşə kursları təşkil olunub.

“2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar məhdud fiziki imkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audiokitabxana xidmətindən istifadə edən görmə qabiliyyəti məhdud şəxslər tərəfindən 1052 əsər dinlənilib, sağlamlıq imkanları məhdud uşaqlar Ağbulaq İstirahət Mərkəzində “Yay məktəbi”nə cəlb olunublar.

# İkiqat vergitutmanın aradan qaldırılması sazişləri üzrə mütərəqqi texnologiyaların tətbiqinə başlanılıb

***Azərbaycanın beynəlxalq reytinqlərdə və hesabatlarda mövqeyinin yaxşılaşmasına təsir göstərən mühüm amillərdən biri - ikiqat vergitutmanın aradan qaldırılması sazişləri üzrə ən mütərəqqi texnologiyaların tətbiqinə başlanılıb.***



AZƏRTAC vergiler.az saytına istinadla bildirir ki, Azərbaycan ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq sazişlərin inzibatçılığı qaydaları da sadələşdirilib. Bu sahədə aparılan islahatlar sayəsində ikiqat vergitutmanın aradan qaldırılması sazişləri elektronlaşdırılıb, sənəd formaları sadələşdirilərək sayı azaldılıb, elektron müraciət etmək imkanı yaradılıb, kağız dövriyyəsi minimuma endirilib.

İslahatların mühüm istiqamətlərindən biri də Azərbaycanın diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən “ASAN imza” sertifikatının verilməsidir. Artıq həmin sertifikatlar xarici ölkələrlə qarşılıqlı şəkildə tanınır. Bu çərçivədə atılan addımlar vergiödəyicilərinin xərclərinin optimallaşdırılmasına və biznesin təşviqinə xidmət edir, xarici biznes tərəfdaşları arasında sənədlərin elektron formada tərtibinə və imzalanmasına, elektron məlumat mübadiləsinə, transsərhəd elektron xidmətlərinin həyata keçirilməsinə, əcnəbi investorlar üzrə vergi və inzibati xərclərin azalmasına imkan verir.

# Paşinyanın arvadı riyakarlıq edir

## *Qabil Hüseynli: "Anna Akobyan, əslində, bu kimi vasitəylə Ermənistanın işğalçılıq siyasətini dünya ictimai rəyindən azdırmağa çalışır"*

***Bəlli olduğu kimi, işğalçı Ermənistanın baş naziri Nikol Paşinyanın arvadı, jurnalist Anna Akobyan ötən ay başlatdığı "Qarabağda sülh təşəbbüsü" adı altında yenə Moskvaya getməyə hazırlaşdığını deyib. Qeyd edək ki, Anna Akobyan bu barədə İrəvanda keçirdiyi mətbuat konfransında bildirib.***



"Biz artıq səfərə hazırlaşırıq. Bu təşəbbüs davam edir"- deyə qeyd edən Paşinyanın arvadı hələ ötən ay Moskvaya etdiyi səfər zamanı "Qadınlar sülh naminə" adlı "vətəndaş təşəbbüsü" başlatdığını bəyan etmişdi.

Xatırladaq ki, "təşəbbüsün" məqsədinin münaqişənin dinc yolla nizamlanmasına yardım etmək üçün müxtəlif sferalarda fəaliyyət göstərən qadınların Dağlıq Qarabağa səfərlərinin təşkil edilməsi olduğunu deyən Anna Akobyan Moskvada bir qrup qadın fəalla görüşündə bu sülh təşəbbüsünü Azərbaycana da çatdırmağı xahiş etmişdi. O bildirmişdi ki, münaqişənin kökünün nədə olmasının əhəmiyyəti yoxdur, əsas məsələ müharibəyə yox deməkdir. Akobyan azərbaycanlı və erməni əsgərlər arasında fərq qoymadığını desə də, onun sözlərinin səmimiliyi inandırıcı görünməyib. Belə ki, bu dırnaqarası təşəbbüsün ardınca, rəsmi Bakı cavab olaraq bildirib ki, Qarabağda sülhə nail olmağın yolu Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərini azad etməsindən keçir.

**"Anna Akobyan, əslində, bu kimi vasitəylə Ermənistanın işğalçılıq siyasətini dünya ictimai rəyindən azdırmağa çalışır"**

Sözügedən məsələ ilə bağlı "Səs" münasibət bildirən politoloq Qabil Hüseynli hesab edir ki, Anna Akobyanın bu cür çıxışları siyasi artistizmdən başqa bir şey deyil. "Bu məsələnin arxasında siyasi riyakarlıq dayanır"- deyə qeyd edən politoloqa görə, Anna Akobyan, əslində, bu kimi vasitəylə Ermənistanın işğalçılıq siyasətini dünya ictimai rəyindən azdırmağa çalışır. SİTAT: "Bu, xüsusilə, MDB məkanında siyasi-ictimai fikri azdıraraq, çaşdırmaqdır. Onlar bu yollarla guya ermənilərin sülhpərvər olmaları haqqında yalançı obrazlar formalaşdırmağa çalışırlar".

**"Azərbaycan öz ərazi bütövlüyünü təmin etməyə qadirdir"**

"İşğalçı ölkə olan Ermənistan çox gözəl bilir ki, Azərbaycan dövlətinin güclü ordusu var"-deyə qeyd edən Qabil Hüseynli, eyni zamanda bildirib ki, Azərbaycanın öz torpağını işğaldan azad etməyə kifayət qədər gücü var: "Yeni Azərbaycan öz ərazi bütövlüyünü təmin etməyə qadirdir. Əlbəttə, biz istəyirik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh danışıqları yolu ilə həll olunsun. Ümid edirik ki, Dağlıq Qarabağ münaqişəsi öz həllini tezliklə tapar və öz yurd-yuvalarından didərgin düşmüş qaçqın və məcburi köçkünlər öz ev-eşiyinə qayıdarlar".

**"Əgər bu gün beynəlxalq təşkilatlar istəsələr, işğalçı ölkə olan Ermənistana qarşı ciddi addımlar ataraq, sanksiyalar tətbiq edə bilərlər"**

Politoloq onu da qeyd edib ki, bu gün bütün dünya və o cümlədən, beynəlxalq təşkilatlar çox gözəl bilirlər ki, Ermənistan işğalçı bir dövlətdir: "Bu baxımdan, işğalçı ölkə olan Ermənistan törətdiyi bütün əməllərinə görə layiq olduğu cəzasını çəkməlidir. Əgər bu gün beynəlxalq təşkilatlar istəsələr işğalçı ölkə olan Ermənistana qarşı ciddi addımlar ataraq, sanksiyalar tətbiq edə bilərlər. Belə olan halda da, Ermənistan törətdiyi bütün əməllərinə görə öz cəzasını çəkərək, işğal etdiyi torpaqlarımızı geriyə - bizə qaytaracaqdır. Lakin təəssüf ki, hələlik, nə beynəlxalq təşkilatlar, nə də ki, dünyanın güc dövlətləri Ermənistana layiq olduğu cəzanı vermirlər. Ona görə də, Ermənistan özünü bu cür sərbəst aparır, yalançı, riyakar və siyasi artistizm fonunda, hətta "birinci ledi" timsalında bənzər "təşəbbüsləri" ictimailəşdirir".

**GÜLYANƏ**

## Aydın Quliyev: "Paşinyan pul-dəstək qoparmaq istəyir"



"Ermənistanda yeni hakimiyyətin apardığı hay-küylü həbslər və antikorrupsiya kimi təqdim etmək istədiyi fəaliyyətlərin, əslində görünənlərdən xeyli fərqli mahiyyətləri var. Kənar müşahidəçilər üçün aldadıcı görüntü ondan ibarətdir ki, Paşinyan əsasən sabiq dövlət elitası və onun həndəvərində pul qazanmış oliqarxları təqib edir. Təqib olunan bu çevrə insanlar erməni cəmiyyətini həm korrupsiya yolu ilə talayıb, həm də təcavüzkar Qarabağ siyasəti ilə Ermənistanın bugünkü iqtisadi fəlakətlərini şərtləndiriblər". Bunu SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev deyib.

Onun sözlərinə görə, Paşinyan məhz bu amillərə görə sabiq elitanın üzvlərini təqib və həbs edir, bununla erməni xalqının gözündə populyarlığını saxlamağa çalışır: "Əslində, bu yol Paşinyan üçün nisbi reytinq saxlamaqdan ötrü nisbətən yeganə üsuldur. O yaxşı başa düşür ki, Qarabağ siyasəti sahəsində ermənilərin kütləvi dəstəkləyə biləcəyi hər hansı prinsipial yeni kurs müəyyən etmək praktik cəhətdən mümkünsüzdür. Qarabağ üzrə təcavüzkar siyasətdən tədricən yan keçmək kursu götürsə, erməni cəmiyyətində ona müəyyən əhəmiyyətli dəstək ola bilər. Ancaq bəlli səbəblərdən o, buna getməz.

Odur ki, antikorrupsiya və hakimiyyətin mənimsənilməsi cinayətləri əleyhinə kampaniya aparmaqla həm öz cəmiyyətinin rəğbətini saxlamaq, həm də beynəlxalq dairələrin diqqətini çəkib pul-dəstək qoparmaq istəyir. Əlbəttə, Paşinyan özündən əvvəlki rəhbərlərin daxili və xarici siyasətdə iflasının əsas səbəbindən xəbərdar olmaya bilməz. O yaxşı bilir ki, təcavüz və Azərbaycanın izolyasiya siyasəti Köçəryan-Sarkisyan hakimiyyətlərini bitirmiş müstəsna səbəblər oldu. Paşinyanın onların acı taleyindən nəticə çıxararaq, xüsusilə Qarabağ siyasətində prinsipial dəyişiklik etməsi, fikrimcə, bir şərt daxilində reallaşa bilər: erməni xalqı kütləvi hərəkat formasında bunu tələb etsə... Azərbaycan izolyasiya siyasətini daha kəskin davam etdirdikcə, Ermənistanda həmin vəziyyət yetişə bilər. Bir sözlə, Paşinyanın öz sələflərinin acı taleyindən ciddi dərslər götürməsi çətin, lakin real perspektivdir".

### Polis Qubada toyda itən 4 yaşlı uşağı taparaq ailəsinə təhvil verib

Qubada toy zamanı itən 4 yaşlı uşaq polislər tərəfindən tapılaraq ailəsinə təhvil verilib. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, avqustun 7-də axşam saatlarında Quba Rayon Polis Şöbəsinə (RPŞ) rayondakı şadlıq saraylarının birində keçirilən toy məclisi zamanı azyaşlı uşağın itməsi barədə məlumat daxil olub. Dərhal polis şöbəsinin əməkdaşları tərəfindən rayon ərazisində axtarışlar başlayıb. Keçirilmiş axtarış tədbirləri nəticəsində qısa bir zamanda dörd yaşlı oğlan uşağı şadlıq sarayından 2 kilometr aralıda tapılaraq rayon polis şöbəsinə gətirilib və ailəsinə təhvil verilib.

## "Sanksiyaların "Cənub-Qaz Dəhlizi"nə tətbiqi mümkün deyil"



"Avqustun 7-də ABŞ Prezidenti Donald Tramp İrana qarşı sanksiyaların yenidən qüvvəyə mindiyi barədə fərman imzalayıb. Bu sanksiyaların İranın idxal-ixrac əməliyyatlarına, İranla əməkdaşlıq edən şirkətlərə tətbiq olunacağı deyilir. Bəzi dairələr İrana tətbiq olunacaq sanksiyaların "Cənub-Qaz Dəhlizi" layihəsinə də təsiri olacağını deyirlər. Amma bu qətiyyən belə deyil". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.

Onun sözlərinə görə, Trampın sanksiyaları paketində təbii qaz istisna təşkil edir: "Burada "Cənub-Qaz Dəhlizi" layihəsi nəzərdə tutulmur. Azərbaycan balanslaşdırılmış beynəlxalq siyasət yürüdür. Ölkəmiz Ermənistan istisna olmaqla dünyanın bütün ölkələri ilə dostluq edir və o cümlədən Azərbaycanın ABŞ-la çox yüksək səviyyədə əməkdaşlıq və dostluq münasibətləri var. ABŞ Azərbaycanın strateji tərəfdaşıdır və heç bir halda İrana tətbiq nəzərdə tutulan sanksiyaların "Cənub-Qaz Dəhlizi" layihəsinə tətbiqi mümkün deyil. Düşünürəm ki, bu fikiri yayanlar Azərbaycanı istəməyən dairələrdir və belə uydurma fikirlər Azərbaycanı düşündürmür".

### Mobil telefon və aksesuarlarının ölkəyə qanunsuz yolla gətirilməsi cəhdinin qarşısı alınıb



Tovuz Gömrük İdarəsinin əməkdaşları mobil telefon və aksesuarlarının ölkə ərazisinə qanunsuz yolla gətirilməsi cəhdinin qarşısını alıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, idarənin "Sınıq Körpü" gömrük postunda Gürcüstandan gələn Azərbaycan vətəndaşının idarə etdiyi "QAZ-3110" markalı nəqliyyat vasitəsinə gömrük baxışı keçirilib. Vətəndaş sorğu-sual zamanı avtomobildə gömrük nəzarətindən gizlədilmiş hər hansı predmetin olmadığını bildirib. Lakin yoxlama nəticəsində, avtomobilin salonunda qoltuqaltının altında və torpedonun içərisindəki maqnitofonun arxasında - 3 ədəd "Samsung Galaxy J4", 1 ədəd "Samsung Galaxy J5 pro", 2 ədəd "Samsung Galaxy J6" və 1 ədəd "Samsung Galaxy A6" markalı mobil telefonlar, 15 ədəd "qulaqcıq", 15 ədəd USB kabel, 15 ədəd qidalandırıcı və mobil telefon üçün 12 ədəd qutu aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.

# Müsavatda əsas günahkar kimdir?

## Və ya Arif Hacılının yarıtmaz siyasətinin baş müəllimi

***Müsavatdaxili qarşıdurmalar fonunda cərəyan edən hadisələr və bu hadisələrdən doğan saysız-hesabsız ittihamlar, ilk növbədə, belə qənaətə gəlməyə imkan verir: bu partiya ən yaxın müddətdə yox səviyyəsində olacaq. Çünki başqan Arif Hacılının yarıtmaz siyasəti üzündən müsavatçılıq ideologiyası parçalanaraq, bir neçə yerə ayrılıb. Elə də uzağa getməyərək "ADR" Hərəkatını, "Ağ Partiya"nı və s. Müsavatdan ayrılmış təşkilatları nümunə kimi göstərə bilərik. Çünki hər iki təşkilata və digərlərinə vaxtilə Müsavatda kifayət qədər fəal işlər aparmış şəxslər rəhbərlik edirlər. Misal üçün, birinə Qubad İbadoğlu, digərinə isə Tural Abbaslı. Hələ o biriləri demirik...***

Onların hər biri istefa verərkən deyiblər ki, müsavatçılıq ideologiyasını əsas tutaraq, yeni təşkilatlarında təbliğ edəcəklər. Bu zaman sual olunur - bəs Müsavat partiyası bundan sonra nəyə gərəkdir? Bu sualın cavabı bəsitdir: Müsavat partiyası "təmizləmə" adı altında klana çevrilir, daha dəqiq desək, ailə podrat təşkilatına... Əgər sabah bu partiyada Arif Hacılının Mustafa Hacıbəyli adlı qardaşından sonra digər qohum-əqrəbaları da vəzifələr tutarlarsa, buna təəccüblənməyə dəyməz. Yəni əgər sabah adı olub-özü olmayan "Əhrar" partiyasının sədri Vaqif Hacıbəyli həmin partiyasını "üzvləri" ilə birgə Müsavata transfer edib, sonradan başqana çevrilərsə, təəccüb etmək olmaz.

Onda ikinci sual yaranır - bəs baş verənlərdə əsas təqsirkar kimdir? Bu sualın da cavabı çətin-filan deyil. Əsas təqsirkar Müsavatın sabiq başqanı İsa Qəmbərdir. Həmin İsa Qəmbər ki, xüsusi canfəşanlığı ilə bir neçə il öncə, saxta qurultayın keçirilməsinə və saxta qurultayda saxta başqanın "seçilməsinə" əvəzsiz imza atmış oldu. Bu gün Arif Hacılı bütün bunlara görə yalnız İsa Qəmbərə minnətdar olmalıdır - baş müəlliminə!

### Maraq doğuran bəyanatlar

Artıq Müsavat partiyasının "mənəm-mənəm" deyən qələm sahibləri də oradan gedirlər. Xatırlatmaq yerinə düşərdi ki, hələ uzun müddət bundan qabaq "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu oranı tərk etmişdi. Lakin sonradan ard-arda istefalar davam etdi. Onun qardaşı Azər Ayxan, eləcə də, digər "yeni müsavatçılar" partiya sıralarını səsli-küylü tərk etdilər. Amma maraqdoğurucu bir tələblə - dedilər ki, nə vaxt İsa Qəmbər yenidən Müsavatın başqanı olacaqsa, həmin vaxt partiyaya bərpa üçün müraciət edəcəklər. Fəqət, bu tələbin yerinə yetib-yetməyəcəyi, hətta yetəcəyi halda, gedənlərin geri dönəcəkləri faktı heç üfüqdə belə görünmür.

### Bu zaman sual yaranır ki...

Əslində, bu cür bəyanat gülünc təsir bağışlayır və belə bir sual yaranır: hərgah bir partiyanın dağılmasında əsas rol almış adam dayanıbsa, onun həmin partiyaya geri dönməsi nə qədər mümkün görünə bilər, axı? Amma etiraf etməliyik ki, ənənəvi müxalifətdə hər an elə hadisələr baş verir ki, ictimai-siyasi rəy də onlardan baş açmır. Çünki ölkə mətbuatı, bir müddət əvvəl, partiyada baş alıb gedən özbaşınalıqları, ailə podrat vəzifələrinin təyinatları və s. bənzər olayları əsas olaraq İsa Qəmbərin üzərinə yıxırdılar. İndi isə İsa Qəmbərin yenidən başqan kimi qayıtmasını istəyirlər...

Lakin hər şeyə rəğmən, Müsavat partiyası ayaqda qalmaq gücünü və şansını itirib. Bu gün Hacılı və ətrafı zaman-zaman gülünc, istehza yaradan "ideyaları" ilə düşərgədəki opponentlərinə fəal olduğunu göstərməyə çalışırlar. Hətta müsavatçılar var ki, belə olanda, özlərini güclə gülməkdən saxlayırlar. Və kimsə inanmır ki, Müsavat bundan sonra, ümumiyyətlə, hər hansı siyasi uğur əldə etsin. Çünki Müsavat partiyası artıq yoxdur, bitib-tükənib. Bitmişlərin isə siyasi səhnədə yerləri heç vaxt olmur. Məgər 25 ildir müxalifətin ənənəvi, ya da radikal qanadında bütün bunlar müşahidə olunmurmu?

**R.RƏSULOV**



# Əli Kərimlinin heyvani ehtirası

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Şəxsən mən heç vaxt, hətta dünya dağılsa belə, Əli Kərimlinin səmimiyyətinə inanmamışam, inanmayacağam da. Çünki bir "adam" ki, gah şəhid, gah onun öz güdazına həbsə düşmüş partiyadaşı, gah da qalib ordunu "məğlub" kimi göstərmək "siyasəti" üzərində xal toplamağa çalışırsa, belə "adamı" ən yaxşı halda, təkdırnaqlı və dördayaqlı heyvana bənzətmək olar. Halbuki bu da həmin heyvan üçün çox böyük həqarət hesab edilə bilər. Təsir edəcək məsələ isə bilirsinizmi nədir? Bu günlərdə anasını itirmiş (Allah rəhmət eləsin-R.) blogger Mehman Hüseynovun üzərindən özünə siyasi xal qazanmaq ehtirası... Buna həm də heyvani ehtiras deyərlər. Çünki ən ağılsız insan belə, başqalarının dərdi, problemi üzərindən özünə xal və dividend qazanmaq istəməz. Bunu etmək üçün həmin varlıq öncədən planlaşdırmalıdır ki, həmin hərəkətinə görə, ona ən ağır həqarətlər edilə bilər.***

Bu insan anasını itirib və siyasi baxışının və düşüncəsinin necə olmasından asılı olmayaraq, onun ailəsinə aid olmayan bir kəsin durub hakimiyyətə qarşı oyunbazlıq sərgiləməsi, ümumiyyətlə, kişilik çərçivəsinə sığan məsələ deyil. Yəqin buna görə Əli Kərimlidən uzaqlaşan insanların çoxu onu özünü ucuz satan küçə fahişəsi, hətta daha betər "naxışlarla" bəzəyiblər.

Başqa tərəfdən, sual oluna bilər ki, axı ay Əli Kərimli, əgər sən bu qədər humanizm və demokratiya və s. aşiqisənsə, axı nəyə görə bu günə qədər özünün və oğlunun çıxardığı oyunların hesabatlarını xalqa vermirsən? İndi də düşmüsən Mehman Hüseynovun üzərindən hakimiyyətlə oyunbazlıq edirsən? Niyə öz kirli və murdar ağzınla, elə həmin murdarçılıqlarını ətrafa səpələyib, guya ki, öz təbirincə, hakimiyyətə qarşı istehza edirsən? Axı bilən bilir ki, sən hansı yuvanın quşusan? Axı bilən bilir ki, sənin kimi şərəfsiz birindən bütün nəslin-kökün imtina edib? Özünü kişi sayan kəs təkcə bu məsələdən sonra, ya gedib intihar edər, ya da soyadını dəyişib, başqa soyadla yaşayar və bu kimi şərəf məsələsini də vurar qırmızı peysərinə!

Mən bir daha Mehmanın itkisinə görə sadə bir adam kimi rəhmət diləyirəm, amma Əli Kərimli kimi heyvani hisslərlə deyil, insani hisslərlə. Yəqin ki, bunu anlayan anlayar, əlbəttə, Əli Kərimli qədər təkdırnaq və dördayaqlılardan başqa...

# Ölkə ərazisində temperatur 3-5 dərəcə aşağı enəcək, leysan yağacaq

Ölkə ərazisində avqustun 9-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Səhər və axşam yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 23-25°, gündüz 28-33° isti, Bakıda gecə 23-25°, gündüz 30-32° isti olacağı proqnozlaşdırılır.

Atmosfer təzyiqi normadan aşağı - 755 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz təşkil edəcək. Abşeronun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh və Zuğulbada dəniz suyunun temperaturu 25-26°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil və Şıxda isə 26-27° isti olacaq. Şimal-qərb küləyinin güclənməsi ilə əlaqədar çimərliklərdə əlverişsiz hava şəraiti müşahidə ediləcək.



Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, avqustun 9-da Abşeron yarımadasında arabir güclənən xəzri küləyinin əsməsi fonunda temperatur rejiminin iqlim normasına yaxın olacağı gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir. Xəbərdarlığa əsasən, avqustun 9-dan 12-dək Bakıda və Abşeron yarımadasında şimal-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi gözlənilir.

Azərbaycanın rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı, şimal və qərb rayonlarında yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimal edilir. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi proqnozlaşdırılır. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 31-36° isti, dağlarda gecə 12-17°, gündüz 18-23° isti olacaq.

Naxçıvan Muxtar Respublikasında hava əsasən yağmursuz keçəcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 31-36° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı proqnozlaşdırılır. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 12-17°, gündüz 18-23° isti olacaq.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının bəzi yerlərində şimşək çaxacaq, arabir yağış yağacaq. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dağlıq ərazilərdə dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, arabir güclənəcək. Temperaturun gecə 19-24°, gündüz 28-33° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 25-30° isti, dağlarda gecə 11-16°, gündüz 17-22° isti olacağı proqnozlaşdırılır.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi qərb rayonlarında şimşək çaxacağı, yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 31-36° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarının bəzi yerlərində şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 22-25°, gündüz 28-33° isti, dağlarda gecə 15-20°, gündüz 25-30° isti olacağı proqnozlaşdırılır.

Xəbərdarlığa əsasən, avqustun 8-i axşam şimal və qərb rayonlarından başlayaraq ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Yağıntının ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir güclü qərb küləyi əsəcək. Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5° enəcək. Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın bəzi dağ çaylarından qısamüddətli daşqın və sel keçəcəyi proqnozlaşdırılır. Qeyri-sabit hava şəraiti avqustun 11-i axşamadək davam edəcək.

# Ermənistan hakimiyyəti dilemma qarşısında

## *Vahan Şirxanyan: "Serj Sarkisyan həbs olunarsa, təəccüblənməyəcəyəm"*

***Ermənistanda köhnə sistem təmsilçilərinin həbsləri davam edir. Belə ki, bu günlərdə Masis rayonunun hərbi komissarı, eləcə də, digər bölgələrin Serj Sarkisyan dönəmindən qalan şəxsləri həbs edilərək, təcridxanalara göndərilirlər. Xüsusilə, Robert Koçaryanın həbsindən sonra sürətlənən həbslər dalğası, artıq belə qənaətə gəlməyə zəmin yaradır ki, Nikol Paşinyan hökuməti köhnə sistemi tamamilə dağıdaraq, qarşısında olan bütün rəqiblərini siyasi meydandan kənarlaşdırmağa başlayıb. Daha dəqiq desək, köhnə sistemdən qalan ən kiçik dövlət qulluqçularını belə bağışlamayan Paşinyan nəhəngləri də "dənləməyə" hazırlaşdığını gizlətmir. Artıq onun "məxməri inqilab" vasitəsilə devirdiyi Serj Sarkisyanı da həbs etmək planının olması an məsələsinə çevrilib.***



### "Serj Sarkisyan Ermənistana Robert Koçaryandan daha çox ağır zərbələr vurub" iddiası

Yeri gəlmişkən, hələ Serj Sarkisyan dönəmində "Nork-Maraş" silahlı cinayətkar qrupunun üzvü kimi həbs edilmiş müdafiə nazirinin sabiq müavini Vahan Şirxanyan da bu məsələ ilə bağlı Ermənistanın "Birinci Kanal" Portalına müsahibə verərək, deyib ki, əgər Sarkisyan həbs edilərsə, bundan təəccüblənməyəcək. Robert Koçaryanın həbsi ilə bağlı fikirlərini erməni portalı ilə bölüşən Şirxanyanın müsahibəsindən bəzi məqamları çatdırmaq istərdik. Belə ki, o, Ermənistanda ədalətli hakimiyyətin qurulması üçün bəzən sərt və ağrılı təmizlənmənin aparılmasının vacib olduğunu deyib. "Koçaryan 5 ümumdövlət seçkilərində konstitusiyanı pozub"-deyə qeyd edən Vahan Şirxanyan onun (Koçaryanın) bütövlükdə Ermənistanı ali qanunvericilikdən və konstitusiyadan on il məhrum etdiyini də vurğulayıb: "Qeyri-legitim prezident olmaqla o, dəfələrlə dinc nümayişçiləri dövlətin güc strukturları vasitəsilə məhv edib. Əlbəttə ki, onun həbsi doğru qərardır və mən təəccüb hissi keçirmərəm ki, ondan sonra Serj Sarkisyan həbsə məruz qalsın. Çünki onun cinayətləri daha ağır olub və Ermənistan daha böyük itkilərə məruz qalıb".

Vahan Şirxanyan köhnə sistem nümayəndələrinin həbslərinin vacibliyi barədə danışaraq bildirib ki, onların hər biri cinayətkar rejimin əmr və tapşırıqlarını müqəddəs vəzifə kimi yerinə yetiriblər.

### Anti-Rusiya meyilləri artır ermənilər Lavrovun bəyanatından hiddətləniblər?

Jurnalistin Robert Koçaryanın "Artsax" qəhrəmanı" olduğunu xatırlatmasına da münasibətini bildirən Şirxanyan deyib ki, əgər onda "dəmir iradə" olsaydı, kresloya və pula bu qədər həvəslənməzdi. Belə ki, Koçaryanın bu ada sahib olması onun cinayətlərini ört-basdır edə bilməz.

### Şirxanyan müsahibəsində Rusiyaya qarşı da ittiham irəli sürməyi unutmayıb

Xatırladaq ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Koçaryanın həbsi ilə bağlı deyib: "Ermənistanda baş verən hadisələr (həbslər) ölkənin yeni liderlərinin daha öncəki hakimiyyət nümayəndələrini təqib etməyəcəkləri ilə bağlı verdikləri bəyanatlarına ziddir. Moskvada mövcud böhranın həll olunması kompromislər sayəsində həll olunsa da, son günlər baş verənlər pozitiv köklənməni pozur və yeni hakimiyyətin bəyanatlarına cavab vermir".

Bu arada, Robert Koçaryanın həbsindən sonra qondarma "DQR"lə Ermənistanın arasında kəskin münasibətlər yaranıb. Daha dəqiq desək, Ermənistanın prezidenti olmamışdan öncə, Koçaryanın "DQR"in "birinci prezidenti" olması önə çəkilib və qondarma respublikanın bir qrup "parlament deputatı" Ermənistanın baş prokurorluğuna müraciət ünvanlayaraq, onun azadlığa buraxılmasını tələb edib. "DQR"in qondarma "parlament spikeri"nin mətbuat katibi Anuş Qavalyan öz feysbuk səhifəsində bu barədə yazaraq, Koçaryanın azad edilməsi istiqamət ində işlər aparıldığını gizlətməyib.

Ermənistan hakimiyyəti isə bununla bağlı yenə də Koçaryanı ittiham edərək, onun guya "DQR"-in nüfuzlu şəxslərinə və qurumlarına təzyiq etdiyini deyir.

Ümumilikdə, baş verənlər, eləcə də, Vahan Şirxanyanın müsahibəsindən də açıq-aydın görünür ki, Nikol Paşinyan hakimiyyəti ciddi dilemma qarşılığındadır. Bir tərəfdən Rusiyanın artan təzyiqləri, digər tərəfdən isə "DQR"in Ermənistan qarşısında qoyduğu tələbləri siyasi böhranı daha da dərinləşdirib. Görünən isə budur ki, yaxın zamanlarda bu böhran daha da dərinləşəcək. Xüsusilə, Serj Sarkisyanın həbsi məsələsinin gündəmə çıxması vəziyyətin çərçivədən çıxmasına səbəb olacaq.

***Rövşən NURƏDDİNOĞLU***

---

# "Bakcell"in 4G şəbəkəsi: rahatlıq, ultra-yüksək sürət və üstün keyfiyyətli müştəri təcrübəsi

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti abunəçilərinə ən yaxşı müştəri təcrübəsini təmin etmək üçün ən qabaqcıl və müasir texnologiyalardan istifadə edir.




### 4G nədir?

Sadə dildə desək, 4G texnologiyası mobil cihaz vasitəsilə həyata keçirilən yükləmə, video zəng, mobil televiziya və ya sosial şəbəkələrdən istifadə kimi əməliyyatların sürətini əhəmiyyətli dərəcədə yüksəltmək üçün yaradılmış dördüncü nəsil simsiz məlumat-ötürmə şəbəkəsidir. Siz yəqin ki, 3G texnologiyasını dəstəkləyən mobil telefonlar vasitəsilə mobil internetdən bir neçə müddətdir istifadə edirsiniz. Lakin 4G əsasən daha sürətli, rahat və sabit texnologiyadır. Bakcell şirkətinin qurduğu ən müasir 4G şəbəkəsi abunəçilərə öz smatrfonlarının ən maraqlı funksiyalarından tam şəkildə yararlanmaq imkanı verir. İnternetdə saytları açmaqdan tutmuş, filmlərin yüklənməsi, telefonda istifadə olunan proqramların yenilənməsi və hətta canlı video efirlərin təşkilinə qədər hər bir əməliyyat 4G şəbəkəsi ilə əvvəlkindən inanılmaz dərəcə sürətlidir.

### "Bakcell"n 4G şəbəkəsinin əsas üstünlükləri nədir?

Daha sürətli və keyfiyyətli mobil internet müasir müştəri təcrübəsinin əsas tələbləridir. 2015-ci ildə Bakcell şirkəti özünün 4G şəbəkəsində ən son texnoloji yenilik olan LTE Advanced Carrier Aggregation (tezlik daşıyıcılarının birləşməsi) texnologiyasını tətbiqi sayəsində saniyədə 225 Meqabitə qədər olan sürətin dəstəklənməsini təmin edib. Bu gün Bakcell şəbəkəsi dünya üzrə tezlik daşıyıcılarının birləşməsi ilə Kateqoriya 6 "LTE-Advanced" texnologiyası üzərindən fəaliyyət göstərən nadir şəbəkələrdən biridir. Bu isə o deməkdir ki, sözügedən texnologiya sayəsində Bakcell abunəçiləri yüksək həllolma əmsalı ilə 4K kontentini izləmək və yükləmək, əyləncə proqramlarına ani giriş əldə etmək, HD keyfiyyətində onlayn video izləmək, canlı konsert və idman proqramlarına baxmaq və mürəkkəb yeni nəsil mobil biznes tətbiqetmələrindən istifadə etmək imkanına malikdirlər

### 4G şəbəkəsinə keçid çox asandır, əhatə dairəsi isə gündən günə artır

"Bakcell"in 4G şəbəkəsindən istifadə edib hədsiz imkanlardan yararlanmaq üçün sadəcə olaraq smartfonunuzun menyusundan 4G/LTE şəbəkəsini seçmək kifayətdir. Bunun üçün cihazınız və SİM-kartınız həmin şəbəkəni dəstəkləməlidir. Bakcell şirkətinin 4G xidməti artıq bütün Bakı və Abşeron ərazisi və Gəncə şəhəri, Quba, Qusar, Xaçmaz, Şəki, Zaqatala, Qəbələ, Lənkəran, Mingəçevir, Şəmkir, Şirvan, Siyəzən rayonları daxil olmaqla ölkənin 30-dan çox rayon və şəhər mərkəzlərində mobil operatorun abunəçilərinə ən üstün müştəri təcrübəsini təmin edib. Şirkətin 2018-ci ilin ilk yarısında ölkə ərazisində quraşdırdığı 400-ə yaxın yeni baza stansiyasının 300-dən çoxu 4G-ni dəstəkləyir. Həmçinin qeyd edək ki, Bakcell Bakı metrosunda 4G xidmətini istifadəyə verən ilk mobil operatordur.

7000-dən artıq baza stansiyası vasitəsilə Bakcell şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir. Mobil rabitə şəbəkələrinin müqayisəli testləri (bençmarkinq) sahəsində beynəlxalq lider və ən etibarlı müstəqil təşkilat olan "P3 Communications" şirkəti tərəfindən Bakcell şirkəti Azərbaycanda sınaq nəticələrinə görə, ən yaxşı şəbəkə adına layiq görülüb ("Best in Test").

---

# Petrosyan-Koçaryan-Sarkisyan üçlüyü Ermənistanı talan edib: Ölkədən 30 milyard dollar çıxarılıb



Ermənistandan qeyri-qanunu şəkildə 30 milyard dollara yaxın vəsait çıxarılıb. Bu, Ermənistanın hərbi büdcəsinin 60 dəfəsini, Rusiyanın isə bütün hərbi büdcəsini təşkil edir. SİA bu barədə Ermənistan mətbuatına istinadən xəbər verir. 1994-cü ildən 2012-ci ilə qədər Ermənistandan 17 milyard dollar, daha 10 milyard dollar isə 2012-2018-ci illərdə çıxarılıb. ABŞ-ın Global Financial Integrity təşkilatının hesabatına görə, 2004-2013-cü illərdə Ermənistandan hər il təxminən 983 milyon dollar qanunsuz yolla çıxarılıb və bu rəqəm ildən-ilə artıb.

Əgər 2004-cü ildə ölkədən 404 milyon çıxarılmışdısa, bu rəqəm 2013-cü ildə 4 dəfə artaraq 1 milyard 848 milyon dollara çatıb. Bütövlükdə 10 il müddətində Ermənistandan 9.8 milyard dollar qeyri-qanunu şəkildə vəsait çıxarılıb. Pullar təkcə Ermənistandan deyil, eyni zamanda Dağlıq Qarabağdan çıxarılıb. İqtisad elmləri namizədi Aleksey Baliyev iddia edir ki, 30-dan çox erməni şirkəti Dağlıq Qarabağdan qızıl və digər resurslar əldə edir. 2001-ci ildə bu bölgədə fəaliyyətə başlayan Ermənistanın qızıl mədən şirkətlərindən biri (FDM) 16 tondan çox qızıl hasil edib, təkcə 2008-ci ildə 4 tondan çox qızıl əldə edib. Qeyd edək ki, təkcə bir şirkət tərəfindən Dağlıq Qarabağda 16 ton qızıl əldə edilib. Hansı ki, bu cür şirkətlərin sayı 30-dur. Bu qızılların böyük hissəsi "kassadan kənar" çıxaraq yaramazların ciblərini doldurmaqla yanaşı, xarici banklarda gizlədilib. Şübhə edənlər tez-tez soruşur: "Ermənistanda sənaye qurmaq, iş yerləri yaratmaq və dünyaya səpələnən milyonlarla ermənini vətəninə geri qaytarmaq üçün pulu haradan əldə edəcək?".

Yuxarıdakıları nəzərə alsaq cavab çox sadədədir: "Ermənistanın kifayət qədər pulu var. Sadəcə xalqın pulları yaramazlar tərəfindən yeyilərək, 30 milyard dollara yaxın vəsait ciblərə dolur".

***Nailə Məhərrəmova***

# AXCP-Müsavat qarşıdurması...

## Məhz bu faktor müxalifətin sonunu çatdırıb

***Uzun illərdir ki, davam edən AXCP-Müsavat savaşının nə zamansa başa çatacağı kimsəyə inandırıcı görünmür. Çünki ortada olan və reallaşdırıla bilinməyən iddialar buna imkan vermir. Hətta bu gün dünyanın müasir və inkişaf edən siyasi arenasında bu kimi partiyaların fəaliyyət göstərməsi, daha dəqiq desək, "fəaliyyət göstərmək" adı altında yalnız fərdi maraqlara xidmət etməsi onların aşkar simalarını ifşa edir. Bu ifşa isə, artıq belə bir nəticəyə gəlməyə imkan yaradır ki, hələ ötən əsrin ikinci onilliyi zamanı bolşevizm ideologiyası ilə menşevizm arasında cərəyan edən hadisələrin inikasını, əksini cəbhəçilərlə müsavatçılarda görmək elə də çətinlik yaratmır.***

### Onlar nədən xoflanırlar?

Ortada digər bir maraqlı nüanslar mövcuddur. Bu kimi məsələnin təhlilini apararkən, biz nəinki adıçəkilən partiyalar arasındakı münaqişələri, o cümlədən, həmin partiyaların daxillərindəki nifaqlı münasibətlərin şahidlərinə çevrilirik. Bolşevik və menşevik təfəkkürü bu partiyaların daxillərinə artıq o qədər hopub ki, hətta sədrlər kiçik bir etirazlı hal gördükdə, dərhal xoflanır, kürsülərinin əldən veriləcəyindən ehtiyat etməyə başlayırlar. Məsələn, Arif Hacılı sosial şəbəkədə açdırdığı və partiyasına aid olan qapalı səhifədə belə bir qeyd etdirib. SİTAT: "Bizə dönük çıxıb getmiş adamların yazılarına dəstək verməyi, xeyir işlərində yanlarında olmağı, barələrində tərifler yazmağı tərgidin. Nəzərə alın ki, bu yolla dönüklüyə stimul verirsiniz".

Bu amil isə həmin təfəkkürlə hakimiyyətə can atmağın yersiz iddia olmasını bir daha sübuta yetirir. Partiyadaxili müxalifətçiliyə dözümsüzlüyün nümayişi, məhz belə nəticəyə gəlməyə imkan yaradır.

### Arif Hacılı yenidən sabiq müsavatçıların hədəfində

Yeri gəlmişkən, Müsavatı tərk edib getmiş şəxslər də bu tələbi aşkarladıqdan sonra onu "skrin şot" edib paylaşıblar. Bundan sonra isə, A.Hacılını kəskin tənqid kampaniyasına başlanılıb. Keçmiş müsavatçılar Hacılını diktatorluqda ittiham edirlər. Onlar qeyd edirlər ki, partiyanı "bizim kimi düşünməyən bizdən deyil" prinsipiylə idarə edən diktator başqan, partiya daxilində növbəti parçalanmanın əsasını qoyub. Bu səbəbdən, çox yaxın vaxtlarda partiyadan kütləvi istefaların başlayacağı da iddialar arasındadır. Hətta son günlərdə partiyanın Suraxanı rayon şöbəsindən sədr müavini statusundakı istefalardan biri də reallaşdırıldı.

### Əli Kərimli də bənzər vəziyyəti yaşayır

Qeyd edildiyi kimi, AXCP sədri Əli Kərimlidə də eyni hal yaşanır. Çünki ölkə müxalifətinin sırадan çıxmasında əsas rol oynayan bu məsələnin ilk yaradıcıları Ə.Kərimli sonradan həmin keçici sindromu liderlik iddiasında olan digər partiya sədrlərinə də yoluxdurub. Əlbəttə ki, bu tipli ambisioz mövqelər cəmiyyətdə müxalifətə qarşı itirilmiş inamı, ümumiyyətlə, yox edir, nəticədə, digər müxalifətin daha da dərindən parçalanması prosesi sürətlənir.

AXCP sədri ilə bağlı daha bir vacib ittihamı irəli sürmək mümkündür. Məsələn, AXCP ilk partiyalardandır ki, "Yurd" qrupunun rəhbəri olmuş Kərimlinin ambisiyaları üzündən həmin təşkilat parçalanmağa başladı və ölkədə parçalanmış partiyadan digər partiyaların yaranmasına səbəb olan vəziyyət yaşandı. Daha dəqiqi, partiyaların əksəriyyətinin digərlərinin parçalanmasından yaranması ənənəsinə start verildi. Nəticədə, bir partiya digərini rəqib kimi deyil, düşmən gözündə görür, bu halda isə, hansısa məqsəd üçün bir yerə toplaşmağa imkan vermir. Son günlər biz bir daha həmin vəziyyəti yetərincə müşahidə etmişik.

Nəticə etibarilə, bir-birlərini çıxdaş etməkdən ötrü başladılmış dava-şavalar - Ə.Kərimli, A.Hacılı və bu ambisiyanın daşıyıcı olan digər partiyaların fəaliyyətləri müxalifətin sonunu çatdırıb.

**Rövşən NURƏDDİNOĞLU**

# Əli Kərimli öz saxtakarlığını necə ifşa edir?

## AXCP sədri danışdıqca, özünü daha çox açığa çıxarmış olur

***AXCP sədri Əli Kərimlinin sosial şəbəkə vasitəsi ilə saxta profillər açdırıb, "siyasət yürütməsi" kimsəyə sirr deyil. Lakin bu arada AXCP sədrinin saxtakarlığını sübuta yetirən daha bir maraqlı faktı ortaya çıxıb. Belə ki, Əli Kərimlinin "facebook"dakı çıxışlarından bir neçəsini AXCP gənclər komitəsinin profilində on-on beş nəfər bəyənsə də, onun öz profilindəki videoçıxışını "1,5 min" nəfər "bəyənib", üstəlik, "1.024" nəfər tərəfindən "paylaşım" olunub (?), Sual olunur: əgər Kərimlinin öz profilində bəyənmələrin sayı "mini" ötürsə, bu zaman AXCP-yə məxsus digər profillərdə həmin paylaşımların sayı nə səbəbə on-on beş sayla ölçülür? Əslində, bununla, bir daha sübut olunur ki, AXCP sədri yalnız özünə təskinlik verir və insanları saxta rəqəmlərlə aldadır, ya da saxtakarlığını həmin yalanları vasitəsi ilə ictimai rəyə zorla sırımaqla məşğuldur. Bu isə Ə.Kərimli barədə yenilik deyil...***




### Onun maliyyə fırıldaqlarını sübuta yetirən yüzlərlə faktlar mövcuddur

AXCP sədrinin sosial şəbəkələrdəki çağırışlarının nəticəsiz qalması da göz önündədir. O, hər dəfə hakimiyyətə qarşı müxtəlif ittihamlar irəli sürsə də, onların heç birini sübuta yetirə bilməyib. O cümlədən, bu günə qədər onun maliyyə fırıldaqlarını sübuta yetirən yüzlərlə faktlar ictimai rəyin diqqətinə çatdırılsa da, ona əldə etdiyi milyonlarla manat gəlirin haradan əldə edilməsi barədə çoxsaylı suallar ünvanlansa da, həmçinin, bank maxinasiyaları vasitəsi ilə korrupsiya əməlləri tam şəkildə isbatlansa da, nədənsə, həmin suallara cavab verə bilməyib. Gedib-gəlib ölkənin neft gəlirləri ətrafında "alimlik" edən AXCP sədri hələ də anlamır ki, rahat şəkildə müxalifətçilik edib, pul qazandığı ölkənin sabitliyi, məhz dövlətin neft və s. gəlirlərindən əldə edilən vəsaitlər hesabınadır. Çünki bu, ona sərf etmir. Çünki özünü müxalifətin "lideri" hesab edir, ona görə də yalan, böhtan və təxribat xarakterli çıxışlar etməyi özünə, necə deyərlər, "borc" bilir.

### AXCP sədri insanların şüuraltı hisslərinə müdaxilələr edib, özünü bütləşdirməyə cəhdlər göstərir

Başqa tərəfdən, sosial şəbəkədəki söyüş qrupu vasitəsi ilə ona qarşı çıxanları, onu rədd edənləri, siyasətini tənqid edənləri təhqirlər etdirən AXCP sədri sözügedən planının baş tutmadığını görüb, sərsəm-sərsəm çıxışlar edir, insanların şüuraltı hisslərinə müdaxilələr edib, özünü bütləşdirməyə cəhdlər göstərir. Amma alınmır.

Ə.Kərimli anlamır ki, bu gün sərhədlərimizin qorunmasından başlayaraq, Qarabağ və Naxçıvan cəbhəsində düşmənə layiqli cəza verən şanlı Ordumuzun regionda ən güclü Silahlı Qüvvələr sırasında yer almasınadək əldə edilən hər bir uğurun əsasında dövlət apardığı uğurlu neft və qeyri-neft siyasəti strategiyası dayanır. Bu pullar, bilavasitə dövlətin daha güclü və daha qüdrətli olmasına xərclənib və xərclənməkdədir ki, indi bu siyasətin sayəsində Azərbaycanda müstəqil siyasət yürüdülür, heç bir xarici qüvvələr öz maraqlarını ölkəmizdə reallaşdırmağa cürət etmir. Təkcə, Gəncə hadisələrini göstərsək, Kərimlinin dalana dirənməkdən başqa yolu qalmaz.

### Elçibəyə qarşı murdar siyasətin aparıcı "siması"

Onu da xatırlatmaq olar ki, bu, həmin "həqiqət axtarışında" olan Ə.Kərimlidir ki, başının üzərindən asdığı mərhum lideri Əbülfəz Elçibəyin portreti altında oturmasına rəğmən, həmin liderinə qarşı ən çirkin kampaniyalar aparıb, onun ölümünə və həyatını itirməsinə səbəb olub. Əbəs yerə deyil ki, bu gün də AXCP sədrinin Elçibəyi zəhərləderək həyatına suiqəsd etməsi faktları istintaq tərəfindən araşdırılmaqdadır. Əbülfəz Elçibəyə "siflis xəstəsi", "içki düşkünü" və "murdar alkaş" tipli ifadələri də, məhz Əli Kərimli AXCP daxilində yaratdığı qiyamçı "Yurd" qruplaşması, həmin qruplaşmanın əlinə keçirdiyi mətbuatlar vasitəsi ilə ictimailəşdirmişdi. Nəticədə, o, "liderim" dediyi Elçibəyin sədrlik kreslosunu mənəviyyatdan kənar və ləyaqətsizlik yolları ilə ələ keçirdi və indi partiyasında diktatura rejimi qurub monarxiya idarəçiliyi yürüdür.

### Əli Kərimlinin Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı?!

Ə.Kərimlinin oğlu Türkel Kərimli xarici ölkədə büdcəsi yüz minlərlə ölçülən ali təhsil müəssisəsində təhsil aldı, arvadı Samara isə biznes şəbəkəsi idarə etməkdədir. Ümumiyyətlə, AXCP-də despot siyasəti yürüdən Ə.Kərimli oğlu Türkel Kərimlini də özü kimi milli satqın və şəxsiyyətsizlik timsalında böyüdüb.

Biz, hələ AXCP sədrinin yaxınlarından və tərəfdaşlarından gizlətdiyi biznesləri barədə danışmırıq ki, həmin şəbəkəyə aptek, tikinti və s. profillər aid olunur. Məgər bütün bunlar Kərimlinin AXCP-ni monarxik və avtoritar idarəçilik rejimində saxlaması faktları hesab edilə bilməzmi?! Yaxud nəyə görə Ə.Kərimli "haqq-ədalət" bağırarkən, dövlətin pulunu "mənim pulum" adlandırarkən, əldə etdiyi yüz minlərlə gəlirlərdən sıravi cəbhəçilərə maaş ödəmir?! Nəyə görə Əli Kərimli erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən Qərb qurumlarından aldığı maddi vəsaitləri gizlədir?! Axı lazım gələrsə, həmin faktlar ortaya çıxacağı halda, o, qarşısına çıxan sıravi cəbhəçilərin üzlərinə necə baxacaq?

Əslində, bu, onun üçün problem deyil. Siyasi fahişədən hər alçaqlığı gözləməyə dəyər! Məgər o, oğlu Türkel Kərimlini ABŞ-da, bilavasitə Amerikanın erməni lobbisi tərəfindən təşkil olunmuş ABŞ Konqresinin Tom Lantos İnsan Hüquqları Komissiyasının Azərbaycan əleyhinə dinləmələrinə göndərərək, qondarma "DQR"in prezidenti Bako Saakyanın oğlunun çıxışına əl çaldırmamışdımı?! Və bütün bunlardan sonra Ə.Kərimlinin Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı?!

Artıq bu sualın da cavabını hüquq-mühafizə orqanları versələr, daha yaxşı olardı. Çünki bu məsələ get-gedə daha çox qabarmaqdadır...

**R.NURƏDDİNOĞLU**

# XIX əsrdə Azərbaycan qadınlarının təhsil hüququ

***Qafqaz Mülki Hissəsi Baş Rəisliyi Xalq Maarif Nazirliyi 1898-ci il 6 yanvar tarixli məktubunda Qafqazdakı "Müqəddəs Nina" qız məktəblərində, nəinki ikiillik peqadoji siniflərin lazımsız açılması mümkünlüyündən, hətta birillik pedaqoji siniflərin lazımsız olduğunu belə tövsiyə edirdi. O, əsassız bəhanələrlə sübut etməyə çalışırdı ki, "Müqəddəs Nina" qız məktəbləri öz təhsil kursuna görə gimnaziyaya uyğun gəlir, hələ üstəlik yarımqapalı olan bu təhsil ocaqları İmpeatrisa Mariya Müəssisələri Baş İdarəsinin qız institutlarına yaxınlaşır. Buranı qurtaran qızlar müəllimlik hüququ qazanırlar. Ona görə də, "Müqəddəs Nina" Qız Məktəbində "Tiflisdəki" ikiillik kursun açılmasının heç bir zəruriyyəti yoxdur.***

Gimnaziyalarda isə birillik və ikiillik pedaqoji kursların yaradılması məqsədəuyğun sayılırdı və belə əlavə siniflər həmin təhsil ocaqlarında açılmışdı. Bakıdakı qız gimnaziyasını pedaqoji təmayüllü əlavə 8-ci sinif 80-cı illərin əvvəllərində yaradılmışdı.

Ancaq 1897-ci ilədək "Müqəddəs Nina" Qadın Xeyriyyə Cəmiyyətinin 50 illik fəaliyyəti dövründə onun qız məktəblərinin heç birində belə peqadoji təmayüllü siniflər açılmamışdır.

Professor Sabir Gəncəli yazır: "Deməli, Azərbaycanda keçən əsrin, nəinki ikinci yarısında, heç açırlarında belə qadınlardan müəllimlər hazırlayan təhsil ocağı, yaxud pedaqoji kurs yaratmaq mümkün olmamışdı.

Bəs mövcud olan müxtəlif tipli ibtidai qız məktəblərində kimlər dərs deyirdilər? Belə məktəblərdə müxtəlif səviyyəli dini və dünyəvi təhsil görmüş adamlar çalışırdılar. Onların arasında gimnaziya, "Müqəddəs Nina", Marinskaya məktəblərində təhsil almış müəllimlər əsas yer tuturdular. Qafqaz Təhsil Dairəsi Popeçitelinin 1890-cı il yanvarın 1-də verdiyi hesabatdan məlum olur ki, o zaman bütün Qafqaz üzvə mövcud olan 9 qız gimnaziyasında və 7 progimnaziyada cəmi 143 sinif vardı. Həmin qız gimnaziyaları yarandığı gündən 86 buraxılış olmuşdur ki, buranı 1832 şagird qurtarmışdı. Pedaqoji təmayüllü 8-ci siniflərin isə 60 buraxılışında 1205 qız attestat almışdı. 1889-cu tədris ilində 209 qız yeddi sinif həcmində gimnaziya bitirmişdi. 8-ci əlavə siniflərdə isə 136 gənc müəllim hazırlanmışdı".

Göründüyü kimi, bütün Qafqaz ölkəsi üçün bunlar necə də az idi. Həm də unutmaq olmaz ki, bütün ginaziya qurtaranlar müəllim işləmirdilər. Əksəriyyəti o zadəgan və mülkədar qızı olan həmin şagirdlərin çoxu ev xanımı olurdu. Müəllimliyə gedən qızlar isə həyatda çox böyük çətinliklərə rast gəlirdilər. Maddi əziyyətin ağırlığı, digər tərəfdən mühafizəkar ailələr, tatarlar (azərbaycanlılar" və dağlılar arasında maarifin yayılması, ibtidai məktəblərin açılması və təşkili əhalinin azad iradəsinin, həmin xalqların ruhanilərinin tam müstəqilliyi sayəsində mümkündür.

"Kavkazski kuryer" qəzeti həmin məqaləni şərh edib, nöqsanlarını göstərərkən yazırdı ki, ermənilər təhsildə öz qonşularını geridə qoymuşlar. Onlar, hətta gürcülərdən iki dəfə irəlidədilər. Nə üçün? Qəzet bu suala cavab verərək, əsaslandırır ki, dövlət ermənilərə daha çox imkanlar yaratmışdır. Bu da çar Rusiyasının Qafqazda türk-müsəlman xalqlarına münasibətini əks etdirən bir dəlil.



Əgər din xadimlərinin müstəqilliyi və səxavəti şərt sayılsaydı, onda Gürcüstanda məktəblərin sayı çox olardı. Qəzet sonra yazır ki, əvvəllər bu cür məktəblərdə gürcü çarlarının özləri maraqlanırdılar. Kilsə xadimlərinin arvadları belə öz evlərində savad məktəbləri açmalı idilər.

Ancaq XIX əsrin əvvəlləri və ortalarında bu ölkədə təhsil işi geri qalmağa başlamışdı. Qəzet "Qolos"un müəllifini tənqid edərək söyləyirdi ki, ermənilərin təhsildə irəli getmələri təkcə din xadimlərinin fəallığında deyildir. "Kavkazski kuryer" göstərir ki, yalnız ruhanilərin fəaliyyətilə maarif işini canlandırmaq olmaz. Bu işdə ziyalılar, xeyriyyə cəmiyyətləri və sadə xalq kütləsinin özü iştirak etməlidir.

Əlbəttə, məlumdur ki, qəzet var hökumətinin maarif sahəsindəki siyasətini və fəaliyyətini tənqid edə bilməmişdi. Halbuki Zaqafqaziyada ibtidai məktəblərin açılması və təşkili qaydaları onların geniş yaradıcı təşəbbüs və imkanlarının meydana çıxmasına mane olurdu. Həm də geniş pedaqoji həddi keçməyən, metodik cəhətdən kamil biliyə və təcrübəyə yiyələnməyən bu müəllimlər təlim və tərbiyə işində böyük çətinliklər çəkirdilər.

Rusiyada olduğu kimi, Azərbaycanda da müxtəlif tipli ibtidai məktəblərin tarixi əsasən, 60-cı illərin inqilabi-demokratik və maarifçilik hərəkatı ilə bağlıdır. Məktəb və maarif işində həyata keçirilən islahat Azərbaycanda dünyəvi elmlərə həvəsi daha da artırdı və yeni qız məktəblərinin yaranmasına səbəb oldu.

Tarixi daha dəqiq araşdırdıqda, görürük ki, hələ 50-ci illərin əvvəllərində Zaqafqaziyanın müxtəlif yerlərində ayrı-ayrı şəxslərin evlərdə açdıqları istər rus, erməni, alman, yəhudi, istərsə də Azərbaycan qız məktəbləri mövcud olmuşdu. Bu məktəblərdə, əsasən, şəriət, ana dili və evdarlıq dərsləri tədris edilirdi. Lakin rəsmi ibtidai qız məktəbləri 60-cı illərin ortalarında açılmağa başlanmışdı. Həmin illərdə Qafqaz Canişinliyinin tabeliyində olan ərazidə cəmi 1460 təlim-tərbiyə ocağı vardı. Burada 37.414 şagird oxuyurdu. Onların ancaq 2.318 nəfəri qız idi. Bu, o demək idi ki, hər min nəfər əhalidən məktəblərdə 0,038 faiz qız təhsil alırdı. Yəni oxuyan oğlanlardan qızlar 13,9 dəfə az idi. Mövcud təhsil ocaqlarında azərbaycanlı qızlar daha azlıq təşkil edirdilər.

"Qolos" qəzetinin bir neçə nömrəsində dərc olunmuş "Qafqazda xalq maarifi" sərlövhəli məqalədə deyilir ki, ermənilərə işində çar hökuməti necə böyük maneçiliklər və təzyiqlər göstərmişdi. Çar hökuməti III Fridrix Vilhelmin "Nə xalqa, nə onun müəllimlərinə mükəmməl bilik vermək olmaz" mühafizəkar sözlərini özü üçün sanki and qəbul etmişdi.

Lakin 60-cı illərin demokratik və maarifçilik hərəkatının və "Kavkazski kuryer" qəzetinin qeyd etdiyi kimi, sadə xalq kütlələrinin canlanması nəticəsində Zaqafqaziyada, həmçinin, Azərbaycanda ibtidai rəsmi qadın təhsili sahəsində ilk addımlar atılmağa başlandı.

Bu addımların ilk cığırlarından biri Azərbaycanın qədim mədəniyyət mərkəzi Dərbənddən başladı. 1864-cü il aprelin 7-də burada Tamojnı Cəmiyyəti tərəfindən müsəlman qızları üçün ikillik qız məktəbi açıldı. Təlim-tərbiyə görmüş analar yetişdirmək məqsədilə bu pansion - məktəbdə ilk illər 20 nəfər qız oxuyurdu.

Burada qızlara həyat üçün vacib olan əmək - əl işi və evdarlıq - təlim keçirilirdi. Məktəbdə şəriət, rus dili, hesab və ana dili də öyrədilirdi. Dərbənd Qız Məktəbinin nüfuzu tez artdı. Ruhanilərin, avam müsəlmanların təzyiqinə baxmayaraq, məktəb get-gedə böyüməyə başladı. Öz qızlarını məktəbə göndərmək istəyən valideynlərin sayı da ildən-ilə çoxalırdı. Məktəbin, təhsilin əhəmiyyətini başa düşən valideynlər və şəhərin qabaqcıl ictimaiyyəti onu böyütmək və açıq tipli qız məktəbinə çevirmək, həm də dövlət hesabına çevirmək istəyirdilər. Ancaq ortaya bir sıra məneələr çıxır, mühafizəkar ruhlu cəmiyyət üzvləri ianə verməkdən imtina edirdilər. Qızların açıq məktəbə gedib-getmələrinə bir sıra müsəlman adət və ənənələri də imkan vermirdi. Bunun nəticəsində məktəbin, hətta bağlanmaq qorxusu vardı. Lakin ürəyi maarif işığı ilə alovlanan adamlar bir-birinin ardınca dövlət orqanlarına xahişlər və məktublar yazıb, məktəbin keşiyində dururdular. Mətbuatda məktəb haqqında xüsusi yazılar dərc olundu. Bakı Məktəblər Direktorluğu Qafqaz Təhsil Dairəsinə göndərdiyi 1873-cü il 1 aprel tarixli məktubunda bildirirdi ki, Dərbənddəki mövcud qız məktəbinin yaşaması üçün cəmiyyətin ianəsi kifayət deyildir. Məktəbə şəhər idarəsindən və başqa mənbələrdən kömək lazımdır. Qafqaz Təhsil İdarəsinin Popeçiteli özünün 1873-cü il 12 may tarixli cavab məktubunda yazırdı ki, Dərbənd Qız Məktəbini saxlamaq üçün 300 manat şəhər gəlirindən və knyagina Olqa Fedorovanın xeyriyyə məqsədilə 200 manat vəsait ayırmağı nəzərdə tutulur. 450 manat da məktəbin öz ehtiyatı vardır. Bunlara əsaslanıb məktəbi açıq tipli təhsil ocağına çevirmək olar. Qafqaz Təhsil İdarəsi Popeçiteli yenə həmin il 22 may tarixli məktubunda Bakı Məktəblər Direktorluğuna bildirdi ki, Qafqaz canişini Dərbənd Qız Məktəbinin hər silkdən olan açıq tipli şəhər qız məktəbinə çevrilməsinə icazə vermişdir.

Dərbənd Qız Məktəbi 1873-cü ildən yeni tədris ilindən həmin proqramla açıq tipli təhsil ocağına çevrildi.

Dərbənd Qız Məktəbinə sonralar başqa millətlərdən olan şagirdlər də qəbul edilmişdi. Məktəb get-gedə artmaqdansa, azalırdı. Məsələn, "Kaspi" qəzetinin verdiyi məlumata görə, artıq keçən əsrin axırlarında bu təhsil ocağında 80 nəfər qız oxuyurdu. Onlardan ancaq 6 nəfəri azərbaycanlı idi.

H.Z.Tağıyev məktəbə kömək məqsədilə ildə 200 manat pul verirdi.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 9 avqust

## Britaniya alimləri qocalma əleyhinə preparat hazırlayıblar



Britaniya alimləri mitoxondrilərdə əsas qocalma proseslərini dayandırmağa imkan verən preparat hazırlayıblar. AZƏRTAC "Rambler News Service" agentliyinə istinadla xəbər verir ki, Ekster Universitetinin mütəxəssisləri yeni AP39, AP123 və RT01 birləşmələrini laboratoriya sınağından keçirərək onları qan damarlarının daxili səthini örtən endotel hüceyrələrdə yoxlayıblar. Tədqiqat nəticəsində alimlər hüceyrələrin qocalmasını azaldaraq bölünməyən "yaşlı" hüceyrələrin sayını 50 faiz aşağı sala biliblər.

Alimlərin fikrincə, göstərilən birləşmələr əsasında preparatlar təkcə uzunömürlülüyü artırmağa deyil, eyni zamanda, onun keyfiyyətini yaxşılaşdırmağa imkan verir. Bundan başqa, mitoxondriyə belə təsir ürəktutması və insult riskini azaltmağa kömək edəcək.

## Alimlər autizm xəstəliyinin müalicəsi üçün "Google Glass" eynəyindən istifadə edəcəklər



ABŞ-in Stenford Universitetinin alimləri autizm xəstəliyindən əziyyət çəkən uşaqların müalicəsi üçün "Google Glass" eynəyindən istifadə etməyə başlayıblar. Tədqiqat çərçivəsində universitetin ekspertləri Ketlin Foss və Nik Haber tərəfindən sifətin tanınması texnologiyası maşın təlimi ilə uyğunlaşdırılıb. Yeni layihə "Autism Glass Project" adlanır. Xüsusi proqram ünsiyyət zamanı emosiyaları həmsöhbətin üz ifadəsinə görə müəyyənləşdirir, "Google Glass" istifadəçisi isə hansı emosiyaların ifadə edilməsi barədə məlumatlandırılır. Psixoloqların sözlərinə görə, bu, sosial bacarıqların inkişafına kömək edir.

AZƏRTAC hi-news.ru saytına istinadla xəbər verir ki, eksperimentdə autizmə tutulan 14 uşaq iştirak edib. Onlardan bir neçə gün ərzində eynəyi taxmaq tələb olunub. Nəticədə 14 ailənin 12-si tədqiqatın sonunda bildirib ki, uşaqlar göz təmasına cəhdə daha yaxşı reaksiya verməyə, eləcə də sadə dialoqlar qurmağa başlayıblar. Hazırda ekspertlərin məqsədi daha uzunmüddətli tədqiqatlar aparmaqdan, həmçinin "Google Glass" eynəyinin uşaq psixikasına təsirini öyrənməkdən ibarətdir. Çünki sistemin öz effektivliyini sübut edəcəyi təqdirdə bu, psixoloqla işə əsaslanmayan yeni autizm terapiya metodu ola bilər.

## İngilis alimləri Maya sivilizasiyasının məhv olması səbəblərini açıqlayıblar

Kembric Universitetinin alimləri Maya sivilizasiyasının məhv olması səbəblərini açıqlayıblar. Onların fikrincə, Maya mədəniyyətinin yoxa çıxmasına quraqlıq səbəb olub. AZƏRTAC "vista-news.ru"ya istinadla xəbər verir ki, tədqiqatçılar bu nəzəriyyənin sübutunu Çiçançanab gölündə tapıblar.

Alimlər Yukatan yarımadasında illik yağıntı miqdarının 41 faizdən 54 faizədək azalmasının qanunauyğunluğunu aşkar ediblər. Qədim sivilizasiyanın məhv olduğu dövrdə bu göstərici 70 faizə çatıb, rütubət isə orta hesabla 7 faiz azalıb. Tədqiqatın rəhbəri Nikolas Evansın fikrincə, təhlil etibarlıdır, çünki sivilizasiyanın məhv olması səbəbləri 1990-cı ildən öyrənilir. Tədqiqatçılar sivilizasiyanın mövcud olduğu 800-1000-ci illər arasında hidroloji şəraitin dəqiq modelini qurublar. Alimlərin fikrincə, güclü quraqlıq məhsuldarlığa təsir göstərib. Maya hindiləri ekstremal şəraitdən sağ çıxa bilməyiblər. Məlumdur ki, qədim sivilizasiya 4 min il əvvəl mövcud olub. Mayalıların yaşadığı ərazidə hazırda Meksika, Honduras, Beliz və Honduras yerləşir. Alimlər qədim sivilizasiyanın yeni sirlərini açmağa ümid bəsləyirlər. Buna görə də bu ən müəmmalı xalqın bilməcələri üzərində baş sındırmağa davam edəcəklər. Onlar əmindirlər ki, tədqiqatın nəticələrini elm və texnologiyaların inkişafına yönəltmək olar.

## "Qarabağ" BATE-yə uduzdu



Futbol üzrə UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinə start verilib. SİA xəbər verir ki, Ağdamın "Qarabağ" klubu Bakıda Belarusun BATE klubunu qəbul edib. Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən görüş qonaqların 1:0 hesablı qələbəsi ilə başa çatıb. Qeyd edək ki, "Qarabağ" - BATE cütünün qalibi pley-off-da Hollandiyanın PSV klubu ilə qarşılaşacaq.

## Qadın voleybolçularımız Xorvatiya yığmasına qalib gəlib



Qadın voleybolçulardan ibarət Azərbaycan yığması Sloveniyada hazırlıqları davam etdirir. AZƏRTAC xəbər verir ki, komandamız təlim-məşq toplanışı çərçivəsində Xorvatiya millisi ilə yoldaşlıq görüşü keçirib. Faiq Qarayevin yetirmələri rəqibinə hər üç setdə qalib gəliblər - 3:0 (25:14, 25:19, 25:16). Qeyd edək ki, millimiz bu il sentyabrın 29-dan oktyabrın 20-dək Yaponiyada keçiriləcək voleybol üzrə dünya çempionatına hazırlaşır.

## Şahmatçılarımız Birləşmiş Ərəb Əmirliklərində ilk qələbələrini qazanıblar

Əbu-Dabidə 25-ci Beynəlxalq Şahmat Festivalı başlanıb. AZƏRTAC xəbər verir ki, yarış çərçivəsində "Masters", "Open", "Juniors" turnirləri keçirilir. İsveçrə sistemi üzrə 9 turda keçirilən "Masters" turnirində 31 ölkədən 161 şahmatçı, o cümlədən 58 qrossmeyster iştirak edir. Birinci turda 69 şahmatçı, o cümlədən Azərbaycandan olan beynəlxalq dərəcəli usta Günay Məmmədzadə ilk partiyanı qələbə ilə başa vurub. Bu turnirdə iştirak edən FIDE ustası Rəvan Əliyev isə Hindistandan olan rəqibini üstələyə bilməyib.

"Open" turnirində 36 ölkədən 150 idmançı iştirak edir. Birinci turdan sonra 109 şahmatçı, o cümlədən Azərbaycan təmsilçisi Fəridə Mustafayeva qalib gəlib. "Juniors" turnirində 19 ölkədən 150 şahmatçı mükafat uğrunda mübarizə aparır. Burada iştirak edən Rəvan Əliyev və Fərid Mustafayev birinci turda rəqibləri üzərində qələbə qazanıblar.

## "Fənərbağça" səfərdə "Benfika"ya uduzub

Avqustun 7-də UEFA Çempionlar Liqasının 2018-2019-cu il mövsümünün üçüncü təsnifat mərhələsi çərçivəsində "Qarabağ" - BATE (0:1) görüşündən başqa, daha 6 qarşılaşma oynanılıb. AZƏRTAC xəbər verir ki, İstanbulun "Fənərbağça" klubu səfərdə Portuqaliyanın "Benfika" komandasına minimal hesabla məğlub olub. Görüşdə yeganə qolu matçın 69-cu dəqiqəsində Franku Servi vurub. Qazaxıstan çempionu "Astana" isə doğma meydanda Zaqrebin (Xorvatiya) "Dinamo" komandasına 0:2 hesabı ilə uduzub.

Digər oyunlarda heç-heçə qeydə alınıb. İsveçin "Malmö" klubu ev oyununda Macarıstanın "Vidi" komandasının müqavimətini qıra bilməyib - 1:1. Kiyevin "Dinamo" komandası səfərdə "Slavia Praqa" ilə görüşdə 82-ci dəqiqədə hesabı açsa da, son saniyələrdə (90+5) qələbəni əldə verib - 1:1. Eyni hesab Serbiyanın "Çrvena Zvezda" və Slovakiyanın "Spartak Trnava" klublarının görüşündə də qeydə alınıb. Hollandiyanın "Ayaks" klubu Belçikanın "Standard Liq" komandası ilə səfər matçının 19-cu və 34-cü dəqiqələrində vurduğu qollarla ilk hissəni üstün başa vurub. Lakin ev sahibləri 67-ci və 90+4-cü dəqiqələrdə qonaqların qapısına yol taparaq məğlubiyyətdən xilas olmağı bacarıblar.

## "Çelsi"dən futbol tarixinin ən bahalı qapıçı transferi



"Atletik"in qapıçısı Kepa Arrizabalaqa karyerasını "Çelsi"də davam etdirəcək. Bilbao təmsilçisinin rəsmi saytında yer alan xəbərə görə, London klubu ispaniyalı qolkiper üçün 80 milyon avro ödəyib. Bununla da Kepa futbol tarixinin ən bahalı qapıçısı və İspaniyanın ən bahalı futbolçusu olub. Qeyd edək ki, İspaniya millisinin üzvü 2012-ci ildən "Atletik"də çıxış edir.

**_Baş redaktor:_**
**Bəhruz Quliyev**
**_Baş redaktorun müavinləri:_**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
**_Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur._**

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**